29_27 IYUl-QARA.qxd 8/22/2024 10:51 PM Page 1

UNİKAL

№30 (2212) 23 avqust 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Zəngəzur dəhlizi ilə bağlı yeni şərtlər: Məsələ sülh sazişi ilə çözüləcək, ya da...



Səh.9

## Əhalinin 91 faizi İlham Əliyevin idarəçiliyindən məmnundur - Sorğu

*Azərbaycan əhalisi arasında Prezident İlham Əliyevin idarəçiliyindən məmnunluq 91 faiz təşkil edir.*

*"Unikal" xəbər verir ki, bu, Azərbaycanda sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində "exit-poll" keçirmək üçün yerli tərəfdaşı ilə birgə Mərkəzi Seçki Komissiyasında qeydə alınan İtaliyanın SWG SPA şirkətinin 15 iyul-15 avqust tarixləri arasında keçirdiyi seçkiöncəsi sorğunun nəticələrində öz əksini tapıb. Sorğunun nəticələrinə görə, rəyi soruşulanların 81 faizi Prezident İlham Əliyevin idarəçiliyini qətiyyətli şəkildə, 10 faizi müəyyən dərəcədə dəstəklədiyini, 5 faiz isə dəstəkləmədiyini bildirib. Sorğu iştirakçılarının 4 faizi cavab verməkdə çətinlik çəkib.*

Səh.2

## "Virusun bu forması nisbətən ağırdır və mutasiyaya uğramış formadır"



*Tibb elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. O, meymunçiçəyi virusunun əlamətlərindən, insanların bu xəstəlikdən qorunması üçün nələrə əməl etməli olduğundan və Azərbaycan ərazisində meymunçiçəyi xəstəliyinə yoluxma halının olubolmayacağından danışıb.*

Səh.4

## Məleykə Abbaszadənin bitmək bilməyən qovğası



*Bu günlərdə sosial şəbəkələrdə köhnə mövzuya yenidən "can verildi": test üsulu ilə bağlı imtahanların ləğv ediləcəyinə dair növbəti dəfə xəbərlər yayıldı. Xatırladaq ki, 1992-ci ildən ali məktəblərə qəbul imtahanları test imtahanı formatından istifadə olunmaqla həyata keçirilir.*

Səh.5

## Parlament seçkilərində seçici fəallığı mühüm amillərdəndir



*Parlamentə növbəti seçkilərin keçirilməsinə sayılı günlər qalır. Seçkilərin vətəndaşların siyasi mədəniyyət səviyyəsinin, siyasi fəallığının artırılmasında rolu böyükdür. Sentyabrın 1-də isə ölkəmizdə parlament seçkiləri keçiriləcək. Hazırda seçkilərə hazırlıq prosesi keçirilir. Seçkilərdə iştirak etməklə xalq onu...*

Səh.11

29_27 IYUl-QARA.qxd 8/22/2024 11:00 PM Page 2



# "Uşaqlarım olmasaydı, torpağı qazıb yanında yatardım" - Renka



***Rəqqasə Rəna Ağamuradova (Renka) dünyasını dəyişən atasından danışıb.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, "Nigar xanım" verilişinə qonaq olan Renka göz yaşlarını saxlaya bilməyib:

"Atamdan sonra böyüdüm, yaşlaşdım. O qədər səhvlər etdim ki... Onunla nəfəs alırdım. Hər dəfə motosikletlə gedəndə göyə baxıb deyirəm ki, ata, yanımda ol. Getdim və qəzaya düşdüm. Amma çox xəsarət almadıq, bildim ki, yanımda mələyim var. Uşaqlarım olmasaydı, torpağı qazıb onun yanında yatardım. Gedirəm qəbrinin üstünə, deyirəm, sağ olsaydın belə bir şey olmazdı. Deyirəm, kaş pis ata olardı, məni bu qədər yandırmazdı".

# "Kişilikdən dərs keçəcək ən axırıncı adamsan" - Ayan Babakişiyeva

***"İndi qarşıma video çıxdı. İlk dəfədir ki, elə ilk dəfədən reaksiya verirəm. Niyə? Çünki videonu görən kimi əsəb keçirtdim".***



Bu sözləri müğənni Ayan Babakişiyeva sosial şəbəkə hesabında yazıb. Sənətçi "Limonçik Əli" adı ilə məşhurlaşan Əli Həsənovun küçədə cizgi-film qəhrəmanının geyimində pul qazanan oğlana etdiyi hərəkəti tənqid edib:

"Durub deməsin ki, bu, limon satan zarafat elədim! Bax, ay bala, sən elə ən axırıncı adam olarsan ki, bu oğlana kişilikdən dərs keçəsən! Səninlə olunan zarafatları deyəsən unutdun. Qaldı ki, kimin necə pul qazandığına: içi mən daxil əlindən bir şey gəlmirsə, otur yerində. Kim hesab edib bu özünü guya? O başlığı çıxardırsan ki, bu, kişi işi deyil? İşin nə olduğunu biləndə hərəkət edərsən. İndi get topunu oyna".

# "Qızlar özünü reklam edir ki, ərə gedirəm" - Ruhəngiz Musəvi

***"Qızlar ailə qurmamış sosial şəbəkədə özünü reklam edir ki, ərə gedirəm. İki ay keçməmiş eşidirsən ki, ayrılıb. Təki ad olsun ki, ərə getdi".***



"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri Əməkdar artist Ruhəngiz Musəvi "Nigar xanım" verilişində deyib. Sənətçi ailə üçün iki dəfə xəyanəti bağışladığını bildirib:

"Heç nəyə tələsmək lazım deyil. Heç kimi də qınamıram. Elə insanlar var ki, sənətini seçir. Mən də sənətimi sevirəm. Amma həmişə ailəli olmuşam. İki dəfə ailə qurmuşam. Boşanmağım xəyanətə görə oldu. Bir-iki dəfə xəyanəti bağışladım. Stres keçirirdim. Səhnədə oxuyurdum, kənarda ağlayırdım. Ürəyim elə qırıldı ki... Heç ağlıma gəlməzdi ki, boşanaram. Amma keçmiş həyat yoldaşım çox peşman oldu".



# "Bundan sonra gecdir..." - Vüsalə Əlizadə

***Aparıcı Vüsalə Əlizadə izləyicilərinin yenidən ana olmaq istəyib-istəməmsi haqda suallarını cavablandırıb.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, o, qızı Diləkdən başqa övlad istəmədiyini deyib. "Biz-bizə bəsik. Bundan sonra gecdir. Allah hamının balasını qorusun. Mənim də bircədənəmi" deyə, Vüsalə paylaşımında yazıb.

Aparıcı daha sonra qızı ilə bağlı xatirəsini bölüşərək "Bir dəftər tutmuşdum. Ailə, dost, tanış, rəfiqələrim hamı ora ad yazırdı. Bakı, Türkiyə, İran, Rusiya harada təzə ad varsa, tapıb deyirdilər. Amma öz ürəyimdə Dilək var idi. Çünki arzum, diləyim gerçək olmuşdu" sözlərini əlavə edib.

# Natavandan qonşuları ilə bağlı paylaşım

***Müğənni Natavan Həbibi qonşuları ilə bağlı paylaşım edib.***



Bağ evində olan sənətçi qonşularının yüksək səslə mahnıya qulaq asdıqlarını lentə alıb. Natavan onun mahnısına qulaq asan qonşularına "Qonşulara eşq olsun" sözlərini yazıb.

Qeyd edək ki, ifaçı bir müddətdir bağ evi tikdirib və orada yaşayır.

# Röyanın keçmiş həyat yoldaşı boşanır

***Xalq artisti Röya Ayxanın keçmiş həyat yoldaşı, iş adamı Anar Cəlilov üçüncü həyat yoldaşı Nigar Cəlilovadan da ayrılıb.***



"Unikal" "Axşam.az"a istinadən xəbər verir ki, o, artıq boşanmaq üçün məhkəməyə müraciət edib. Məhkəmə sentyabrın 16-da keçiriləcək.

Qeyd edək ki, Anar və Nigar 10 ildir ailəlidir. Onun bu nikahdan iki övladı var. Anar və Röya Cütlük 2014-cü ildə boşanıb. A.Cəlilovun R.Ayxanla nikahından da bir oğul övladı var. İş adamı Röyadan ayrıldıqdan sonra da bir dəfə ailəli olub və boşanıb. Anar Cəlilov bir vaxtlar məşhur olan "Çuda peçka" mağazalar şəbəkəsinin sahibinin oğludur.



## Hüseyn Abdullayev yenidən Bakı İstintaq Təcridxanasına qaytarıldı

***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə sabiq deputat Hüseyn Abdullayevin cinayət işi üzrə video formatda məhkəmə iclası keçirilib.***

”Unikal”ın məlumatına görə, iclasda müttəhimin vəkili Şəhla Hümbətova deyib ki, müvəkkilinin iclasda iştirak etmək üçün halı yoxdur. ”Hüseyn Abdullayevin vəziyyəti pisdir. O, müalicə olunmalıdır. Məhkəmədən xahiş edirik ki, bununla bağlı müzakirələr aparılsın”.

Vəkil Cavad Cavadov isə, müvəkkilinin vəziyyəti haqqında Avropa İnsan Haqları məhkəməsinə müraciət etdiklərini deyib: “Nəticələri aldıqdan sonra elektron sistemə yerləşdirəcəyik, xəstəliklərin hamısı sənədlərlə təsdiq olunub”.

Müttəhimin digər vəkili Ceyhun Yusifov onun səhhətinin pis olduğunu bildirib və Hüseyn Abdullayevin öz hesabına özəl klinikada müalicə olunmasına şərait yaradılmasını məhkəmədən xahiş edib. Həmçinin, tibbi rəy olana kimi məhkəmə iclasının təxirə salınmasını istəyib.

Qeyd edək ki, Hüseyn Abdullayev hakimin çıxardığı qərar əsasında Bakı İstintaq Təcridxanasından Müalicə Müəssisəsinə köçürülüb və bir gün müayinə olunduqdan sonra yenidən olduğu yerə qaytarılıb. Belə əsas qoyulub ki, səhhətində heç bir ciddi problem yoxdur.

Sabiq deputat da səhhəti bərpa olunana qədər iclaslarda iştirak etmək istəmədiyini deyib.

Məhkəmə iclası sentyabrın 5-nə kimi təxirə salınıb.

Xatırladaq ki, 2019-cu ilin oktyabr ayında H.Abdullayev 6 il müddətinə azadlıqdan məhrum edilib. Sabiq deputata hədə-qorxu ilə tələb etmə, qanunsuz sahibkarlıq, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma və digər əməllərlə bağlı ittiham verilib. Həbs müddətinin bitməsinə 40 gün qalmış onun barəsində yenidən cinayət işi başlanılıb.

İstintaqla Hüseyn Abdullayevin bilə-bilə cinayət yolu ilə əldə etdiyi əmlakın həqiqi mənbəyini gizlətmək məqsədi ilə özünün və ailə üzvlərinin adlarına ölkəmizdə fəaliyyət göstərən banklarda açılmış 7 bank hesabı vasitəsi ilə ümumilikdə 5.5 milyon manatdan artıq pul vəsaitini müxtəlif fiziki və hüquqi şəxslərin Azərbaycan Respublikası və xarici ölkələrdəki bank hesablarına köçürməklə, konvertasiya əməliyyatlarını həyata keçirməklə, habelə qanunsuz əqdlər bağlamaqla yaxın qohumunun adına Azərbaycan Respublikası ərazisində daşınmaz əmlaklar alaraq həmin məbləğdə pul vəsaitini leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

***Seymur Əli***

# Səlim Müslümovun ailə şirkətinin başı üzərində "qara buludlar"

## Sabiq nazirin oğlu tərəfindən idarə olunan MMC-də nələr baş verir?

***Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun ailə şirkəti ilə keçmiş işçilər arasında gərginlik yaşanır. Səbəb isə sonuncuların əmək hüquqlarının sözügedən şirkət tərəfindən pozulduğuna dair iddialardır.***

Bu günlərdə “Orion Global” MMC-dən şikayətçi olan keçmiş işçilərdən biri Jalə Mürsəlova ”Qafqazinfo”ya müraciətində bildirib ki, 3 il çalışdığım şirkətdən artıq 7 aydır ayrılıb: ” Lakin işlədiyim müddətdə istifadə etmədiyim 90 gün məzuniyyət günüm üçün son haqq-hesabım verilmir”.

Şikayətçi iddia edir ki, 3 il mühasib vəzifəsində işlədiyi şirkət onun haqqı olan pulu vermir: “2021-ci ilin 1 iyun tarixində işə başlamışam. Ötən ilin dekabrında da işdən çıxmışam. Həmin müddət ərzində mənim 90 gün məzuniyyətim var idi. Lakin istifadə etməmişdim. İşdən ayrılarkən həmin məzuniyyət günlərimin əvəzində pulumu, 2297,37 manatı tələb etdim. Onlar isə verməyəcəklərini bildirdilər. Bundan əlavə, istədiyim yerə də şikayət edə biləcəyimi qeyd etdilər. Kimə güvənib, kimə arxalanıb bunu edirlər anlamıram...”

Jalə Mürsəlova deyir ki, məsələ ilə bağlı dəfələrlə şirkət rəhbərliyi ilə danışmağa çalışıb, lakin razılıq əldə edə bilməyib. Bundan sonra Dövlət Əmək Müfəttişliyi Xidmətinə müraciət edib: “Tələb olunan sənədləri vermişəm. Bank çıxarışlarım yoxlanılıb. Həqiqətən şirkətin mənə son haqq-hesab ödəmədiyi sübut olunub. Müfəttişliyin son sözü o oldu ki, məhkəməyə müraciət etmək hüququm var”.

Sözügedən şirkətin daha bir keçmiş işçisi Səbuhi Novruzov da bənzər problemlərdən şikayətçidir. Onun sözlərinə görə, imzası olmadan əmək müqaviləsinə xitam verilib: “Mən işdən azad olmağım barədə heç bir ərizə yazmamışam və heç bir yerə bu barədə imza atmamışam. Belə çıxır ki, əmək müqaviləsinə xitam “Orion Global” MMC tərəfindən verilib. İşəgötürən tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada mənə dövr üzrə son haqq-hesabım rəsmi olaraq ödənilməyib”.

Məsələ ilə bağlı Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanlanmış sorğuya cavab olaraq bildirilib ki, şikayətçinin müraciətinə baxılıb: “Vətəndaş Mürsəlova Jalə Rafiq qızının “Orion Global” MMC-nin rəhbərliyi tərəfindən əmək hüquqlarının pozulması ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanladığı müraciətinə Xidmətin Bakı şəhər İdarəsində baxılıb. Araşdırma zamanı vətəndaş tərəfindən təqdim edilmiş izahatda işlədiyi dövr ərzində məzuniyyət hüququndan istifadə etmədiyi və əsas tələbinin son haqq-hesabının düzgün hesablanaraq ödənilməsi olduğunu qeyd edib.

Müraciətin araşdırılması məqsədilə “Orion Global” MMC-nin ünvanına Xidmətin Bakı şəhər İdarəsi tərəfindən məktub göndərilib və vətəndaşa aid olan sənədlərin “Vətəndaşların müraciətləri haqqında” Qanunun 7.9-cu maddəsinin tələblərinə müvafiq olaraq təqdim edilməsi tələb olunub, lakin sənədlər təqdim edilməyib. Jalə Mürsəlova izahatında işlədiyi son bir il ərzində əmək haqqını nağd şəkildə aldığını qeyd etdiyindən, son haqq-hesabının ödənilib-ödənilməməsi məsələsinə münasibət bildirmək mümkün olmayıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Əmək və Məşğulluq” alt sisteminə baxış keçirilərkən Jalə Mürsəlova ilə “Orion Global” MMC arasında bağlanmış 01.06.2021-ci il tarixli əmək müqaviləsinə 06.12.2023-cü il tarixdə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “a” bəndinə (tərəflərdən birinin təşəbbüsü) əsasən xitam verildiyi məlum olub.

Məlumat üçün bildiririk ki, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Qanuna uyğun olaraq müvafiq sahədə aparılan yoxlamalar 01.01.2025-ci il tarixinədək dayandırıldığından məsələnin yerində araşdırılması mümkün olmayıb.

Bildiririk ki, “Orion Global” MMC-nin rəhbərliyi tərəfindən Dövlət Əmək Müfəttişliyi Xidmətinin Bakı şəhər İdarəsinə sənədlər təqdim edildiyi təqdirdə vətəndaşın müraciətinə yenidən baxılacaq.

Müraciətdə qeyd edilmiş məsələnin həlli ilə bağlı vətəndaşın məhkəməyə müraciət etmək hüququ var”.

Xidmətdən o da bildirilib ki, şikayətçi olan digər vətəndaşın da müraciəti aidiyyəti üzrə araşdırılacaq.

İddialarla əlaqədar “Orion Global” MMC-nin mövqeyini öyrənmək cəhdləri isə nəticə verməyib. Belə ki, nə şirkətin rəhbəri Turqay Müslümlü, nə də digər əməkdaşlar zənglərimizə cavab verib suallarımızı cavablandırmaq istədi.

Məlumat üçün bildirək ki, “Orion Global” MMC qida, qeyri-qida məhsullarının ölkəyə idxalı və ixracı, eyni zamanda digər xidmətləri göstərən şirkətdir.

Qeyd edək ki, Turqay Müslümlü sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun oğludur. Yerli



mətbuatda son illərdə T.Müslümlünün biznesinin çökməsi barədə məlumatlar yayımlanıb. Hətta “Orion Global” MMC adından götürülən kreditlərin ödənilməməsi səbəbindən şirkət müvafiq bank tərəfindən məhkəməyə də verilib. Borclar nəticəsində eks-nazir oğlunun təsisçisi olduğu şirkəti satdığı haqda iddialar da var.

”Unikal”ın araşdırması nəticəsində o da məlum olub ki, Turqay Müslümlü Şotlandiyanın Edinburq Universitetini başa vurduqdan sonra biznes fəaliyyətinə başlayıb.

O, 2017-ci ilin noyabrın 23-də Vergilər Nazirliyinin Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsində 4 şirkət qeydiyyatdan keçirib. T.Müslümlünün yaşadığı ünvanda - Binəqədi rayonu, Ziya Bünyadov , ev 7a-da hüquqi qeydiyyata alınan şirkətlər aşağıdakılardır:

1. ”Orion Global” Məhdud Məsuliyyətli Cəmiyyəti əsasən xidmət sahəsini əhatə edir. Dəbdəbəli “Orion Palace” Səlim Müslümovun biznesində əhəmiyyətli yer tutur və bu şirkət üzərindən idarə olunur.

2. ”Orion Construction” Məhdud Məsuliyyətli Cəmiyyəti tikinti sahəsində fəaliyyət göstərir.

3. ”Orion Cars” Məhdud Məsuliyyətli Cəmiyyəti şəhərin müxtəlif səmtlərində bahalı və VİP salonlu avtomobillərin icarəsi ilə məşğuldur.

4. ”Orion Creative Solutions” Məhdud Məsuliyyətli Cəmiyyəti. Bu şirkət əvvəlcə Turqay Müslümlünün adına qeydiyyatdan keçirilsə də, sonradan Səlim Müslümovun digər oğlu Asim Müslümlünün adına rəsmiləşdirilib.

Asim Müslümlü də Edinburq Universitetində təhsil alıb, hazırda İsveçrədə yaşayır.

Səlim Müslümov 1995-ci ildən bəri yüksək vəzifələr tutub, 1995-ci ilin iyulundan 2000-ci ilin martınadək Maliyyə Nazirliyində idarə rəisi vəzifəsində çalışıb. 2000-ci ilin martında Dövlət Gömrük Komitəsinin sədr müavini təyin edilib. 2002-ci ilin 17 dekabrında Dövlət Sosial Müdafiə Fondunun sədri vəzifəsinə gətirilib. 2013-cü ildən 2018-ci ilin aprelinə kimi isə əmək və əhalinin sosial müdafiəsi naziri işləyib.

***Sənan Mirzə***

29_27 IYUl-QARA.qxd 8/22/2024 11:06 PM Page 4



# Zəngəzur dəhlizi ilə bağlı yeni şərtlər:

## Məsələ sülh sazişi ilə çözüləcək, ya da...

***Rusiya Prezidenti Vladimir Putinin 18-19 avqust tarixlərində Bakıya səfəri zamanı ictimaiyyətin diqqətində olan əsas məsələlərdən biri də Zəngəzur dəhlizi ilə bağlı danışıqlar idi. Putinin səfərini şərh edən rusiyalı politoloq Stanislav Tarasov bildirib ki, tərəflər sülh müqaviləsinin imzalanması barəsində danışıblar. "Zəngəzur dəhlizi problemi aradan qalxır. Ankara və Bakı Zəngəzur dəhlizinin yeni istiqamətinin İrandan keçməsi barədə razılığa gəliblər. Bu təsadüfən edilməyib", - deyə o qeyd edib.***

Başqa bir məqama da diqqət edək. Bir müddət əvvəl Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakıda olarkən verdiyi açıqlama Ermənistanın narazılığına səbəb olub. O, Rusiyanın "Birinci Kanalı"na açıqlamasında Ermənistan Baş naziri Nikol Paşinyanın Qarabağ üzrə üçtərəfli razılaşmaları sabotaj etdiyini bildirib. "Ermənistanın Sünik bölgəsindən keçən kommunikasiyalara gəlincə, təəssüf ki, altında baş nazir Paşinyanın imzası duran sazişi sabotaj edən məhz Ermənistan rəhbərliyidir. Belə bir mövqenin məntiqinin nə olduğunu anlamaq çox çətindir. Amma mən əminəm ki, üçtərəfli görüşlər çərçivəsində, üçtərəfli sənədlərdə qoyulan təməl tam şəkildə aktual olaraq qalır", - o deyib.



Ermənistan Xarici İşlər Nazirliyi Lavrovun çıxışına reaksiya verib. Nazirlikdən bildirilib ki, Ermənistanın açıq sənədlərdən başqa heç bir müqaviləsi yoxdur və onları sabotaj edə bilməz. "Rusiya XİN rəhbərinin bəyanatı Moskvanın İrəvanla Bakı arasında münasibətlərin nizamlanması prosesində konstruktiv iştirakı ilə bağlı açıq təəssüf və şübhə yaradıb. İrəvan sülh gündəliyinə sadiqliyini dəfələrlə təsdiqləyib və onun uğurla həyata keçirilməsi üçün əlindən gələni edəcək", - XİN vurğulayıb.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Elmar Məmmədyarov qeyd edib ki, görüşü ən yaxşı şərh edənlərdən biri Rusiyanın xarici işlər naziri Sergey Lavrov idi: "Lavrov dedi ki, Ermənistan hökumətinin mövqeyini başa düşə bilmirlər. Doğrudan da, belədir, ermənilərin mövqeyini anlamaq çətindir. Bir tərəfdən deyirlər ki, dəhlizi açmaq istəyirik. Sonra suverenlik məsələsini qaldırırlar və ziddiyyətli fikirlər səsləndirirlər. İlk növbədə, əsas problem budur ki, 2020-ci ildə imzalanan 9 noyabr bəyanatının 9-cu bəndinə əsasən təhlükəsizlik məsələsi rus sərhədçilərə həvalə edilmişdi. Həmin bənddə qeyd olunmuşdu ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokadadan çıxarılır. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir. Bu, təkrar idi. Sovet dövründə də, SSRİ sərhədçiləri həmin işi görürdülər. Mənim yadımdadır. Həmin vaxt atam Naxçıvanda işləyirdi. Oraya tez-tez gedirdim. Həmin vaxt sərhəddə avtomobil yolu yox idi. Dəmir yolu xətti var idi. Orada təhlükəsizliyə cavabdeh də SSRİ sərhədçiləri idi".

Müsahibimiz deyir ki, indi isə, Ermənistan mövqeyini dəyişib və bunu istəmir. 9 noyabr bəyanatının şərtlərini pozmağa çalışırlar və suverenlik məsələsini ortaya atırlar: "Özləri heç bir hərəkət etmək istəmirlər. Əgər onlar addım atsaydılar, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel də təklif etmişdi ki, kredit açmağa və sərmayə qoymağa hazırıq. Həmin dəmir yolunun və avtomobil yolunun uzunluğu 40 kilometrdir. Ermənilər bu təklifi də qəbul etmirlər. Öz büdcələrindən də bu yolun inşası üçün vəsait ayırmaq niyyətində deyillər. Beləliklə, prosesi süni olaraq uzadırlar".

"Mənim fikrimcə, bu, bir siqnaldır və Ermənistan hökuməti bu dəhlizi açmaq istəmir. Düşünürəm ki, gec-tez Zəngəzur dəhlizinin açılmasına nail olacağıq. Maraqlı məqamlardan biri də budur ki, dəhlizin açılmasında həm Qərbin, həm Rusiyanın, həm Azərbaycanın, həm də Türkiyənin marağı var", - deyə E.Məmmədyarov fikrini tamamlayıb.

Siyasi şərhçi Asif Nərimanlı isə hesab edir ki, Putin Bakıda Azərbaycan-Ermənistan sülh sazişinin imzalanması, eləcə də sərhədin delimitasiyası və kommunikasiyanın açılmasında təşəbbüsü yenidən ələ almaq niyyətini açıqladı. ABŞ-nin təşəbbüslərinə qarşı əks-həmlə olan bu gedişin baş tutub-tutmayacağı hadisələrin inkişafından bəlli ola bilər, mövcud vəziyyətdə Putinin bəyanatı daha çox vasitəçiliyə növbəti dəfə "elçi düşmək" məqsədi daşıyır: "Birincisi, Ermənistan Zəngəzur dəhlizinin də daxil olduğu üçtərəfli razılaşmalara istinad edildiyi Rusiya masasında iştirak etmək istəmir. İkincisi, Ermənistanın belə bir istəyi bölgədəki planlarını onun üzərindən həyata keçirən Qərb ölkələri tərəfindən qəbul edilməyəcək. Bakı İrəvanın bu təklifdən imtina etmək ehtimalının böyük olduğunu nəzərə alaraq, Rusiyanın diqqətini Ermənistana yönəltmək, həm məsuliyyəti üzərinə götürməmək, həm də Moskva-İrəvan xəttində yaranmış çatları dərinləşdirmək gedişi edir. İndi top Ermənistandadır və Putin Bakıda dediyi kimi, Paşinyanla danışanda Rusiyanın vasitəçiliyinin qəbul edilməsinə çalışacaq. Ermənistan danışıqların Moskvada davam etdirilməsinə razı olarsa, Azərbaycan ciddi risklərlə üzləşməyəcək. Çünki Rusiya masasında bizim əleyhimizə olan Qarabağ məsələsi artıq həll edilib, iki əsas məsələ - kommunikasiyanın açılması və sərhədin delimitasiyasında Bakı və Moskvanın gündəliyi yaxındır. Kommunikasiyanın açılmasında Zəngəzur dəhlizi layihəsini Rusiya da istəyir. Azərbaycan danışıqların Moskva masasına köçürülməsi və regiondankənar oyunçuların uzaqlaşdırılması qarşılığında Naxçıvana yolun dəhliz məntiqi üzərindən açılması ilə yanaşı, sərhədin delimitasiyasında Rusiyada mövcud olan xəritələrin əsas götürülməsinə nail ola və SSRİ dövründə ermənilərə verilən əraziləri aktuallaşdıra bilər. Bütün variantlarda Ermənistan çətin vəziyyətdə qalır".

**Murad İbrahimli**



# Azərbaycan Ermənistanın silahlanmasına reaksiya verməlidir

Politoloq: "Biz hərbi-sənaye kompleksinin inkişafını sürətləndirməli, tərəfdaş dövlətlərdən müasir hərbi texnikanın alışına və birgə istehsalına diqqəti artırmalıyıq"

***"Ermənistan hansı ölkədən mümkündürsə, silah və hərbi texnika almağa çalışır. İrəvanın Fransa və Hindistanla razılaşmaları var və hər iki ölkə Ermənistana silah göndərməkdə davam edir".***

Bu fikirləri "Unikal"a açıqlamasında politoloq Elxan Şahinoğlu səsləndirirb. O bildirib ki, Fransa üçün Ermənistana hərbi texnika satışı geosiyasi əhəmiyyət daşıyır. Belə ki, Paris Ermənistanın hərbi nöqteyi-nəzərdən Azərbaycan qarşısında zəfi düşmənsinin qarşısını almağa çalışır: "Fransa bu səbəbdən Ermənistanı silahlandırmaqda maraqlıdır. Ermənistanın aldığı həbi texnikaya görə Fransaya maliyyə ödəməsi barədə məlumat yoxdur. Bu kredit şəklində həyata keçirilə bilər. Hindistanın Ermənistana hərbi texnika satması isə əsasən iqtisadi amillə bağlıdır. Hindistan hərbi-sənaye kompleksini inkişaf etdirir. Hindistan son 10 ildə hərbi ixracatını 30 dəfədən çox artıb. Hindistan onlarla ölkəyə silah satmağa çalışır. Dehlinin məqsədi qlobal silah bazarında payını artırmaqdır. Hindistan ABŞ, İsrail və digər ölkələrin lisenziyaları əsasında da hərbi texnika istehsal edir. Hindistan Müdafiə Nazirliyinin məlumatına görə, bu ilin aprel-iyun aylarında müdafiə ixracı bir əvvəlki dövrdəki 3,885 milyon rupidən 6,915 milyon rupiyə qədər yüksəlib. Hindistan üçün Ermənistan hərbi texnika satdığı növbəti ölkələrdən biridir.

Dehlinin Ermənistana hərbi texnika satması Azərbaycanda narazılıqla qarşılanıb. Rəsmi Bakı Dehlinin bu siyasətini korrektə etməsini istəyir. Çünki Hindistanın Ermənistana hərbi texnika satmasına baxmayaraq, Dehlinin Cənubi Qafqazda əsas ticarət tərəfdaşı Azərbaycandır. Hindistan Azərbaycandan aldığı neftin həcmini ildən-ilə artırır. Turizm sahəsində də əməkdaşlıq inkişaf edib".

Politoloq onu da qeyd edib ki, Fransa və Hindistanla yanaşı, ABŞ və Almaniyanın da Ermənistanla hərbi əməkdaşlıqlarını genişləndirmələrinə dair xəbərlər var: "Maraqlıdır ki, Ermənistanın silahlandırılmasında əsas rol oynayan ölkə İrandır. Çünki Fransa və Hindistanın Ermənistana göndərdikləri silah və hərbi texnika İranın hava və dəniz limanları vasitəsilə qonşu ölkəyə çatdırılır. İkinci Qarabağ müharibəsi zamanı Rusiya da İran marşrutu ilə Ermənistanı silahlandırırdı.

Bu vəziyyətdə Azərbaycan nə etməlidir? Rəsmi Bakı Ermənistanın silahlandırılmasının bölgədə yeni münaqişəyə səbəb olacağı barədə daima bəyanatlar verir. Ermənistanın aldığı uzaqmənzilli raketlər Azərbaycana təhlükə yaradır. Rəsmi Bakı Ermənistanın silahlandırılmasına seyrçi qalmayacağını bildirsə də, bu İrəvanla hərbi əməkdaşlıq edən dövlətləri dayandırmayıb. Bu vəziyyətdə Azərbaycan da hərbi-sənaye kompleksinin inkişafını sürətləndirməli, tərəfdaş dövlətlərdən müasir hərbi texnikanın alışına və birgə istehsalına diqqəti artırmalıdır. Cənubi Qafqazda silahlanma Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalandıqdan sonra yavaşlaya bilər".

29_27 IYUI-QARA.qxd 8/22/2024 11:06 PM Page 5



# Prezidentin Təhlükəsizlik Xidmətinin hərbçiləri təltif edildi



***Prezident İlham Əliyev Təhlükəsizlik Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
Zeynalov Elşən Əsgər oğlu - general-mayor
"Vətən uğrunda" medalı ilə
Bağırov Mahir Şahvələd oğlu - polkovnik
Bəxtiyarov Rəşad Tapdıq oğlu - polkovnik
Nəcəfli Polad Həbib oğlu - polkovnik
Əliyev Mürsəl Sadıq oğlu - polkovnik-leytenant
İbrahimli Fuad Bafadar oğlu - polkovnik-leytenant
Musayev Bəhruz İlham oğlu - mayor

# Araz Paşayev yüksək vəzifəyə seçildi



***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqına yeni sədr seçilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, yeni sədr Araz Paşayevdir.

Qeyd edək ki, A.Paşayev bundan əvvəl Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri vəzifəsində çalışıb.

***Hüseyn İsgəndərov***

# Azərbaycanın xarici dövlət borcunun yeni tərkibi açıqlandı

***Azərbaycanın bu il iyulun 1-nə 5 milyard 361,3 milyon ABŞ dolları təşkil etmiş xarici dövlət borcunun 86,8 %-i elə dollarda olub.***

"Unikal" bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Məlumata görə, borcun tərkibində avro 6 %, yapon yeni 3 %, digər valyutalar 0,6 %, XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) isə 3,6 % paya malik olub.

Dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici borc məbləğinin 48,4 %-ni, sabit dərəcə ilə olanlar isə 51,6 %-ni təşkil edib.

Xarici dövlət borcunun 42,1 %-i 5 ilə qədər olan müddətdə, 49,1 %-i 5 ildən 10 ilə qədər olan müddətdə, 8,7 %-i isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

Xarici dövlət borcunun 64,2 %-i çoxtərəfli maliyyə institutları üzrə, 25,9 %-i xarici bazarda yerləşdirilmiş istiqrazlar üzrə, 9,9 %-i isə ikitərəfli maliyyə institutlarından cəlb edilmiş kreditlər üzrə öhdəliklərin payına düşüb.

Xarici dövlət borcunun 25,9 %-i avrobondlar üzrə, 35 %-i Asiya İnkişaf Bankı üzrə, 16,7 %-i Dünya Bankı üzrə, 22,4 %-i isə digər kreditorlardan cəlb edilmiş öhdəliklər olub.

Xarici dövlət borcunun 40,6 %-i büdcə kəsirinin bağlanılması üzrə hökumət adından çıxış edən Maliyyə Nazirliyi tərəfindən, 59,4 %-i isə digər icraçı qurumlar tərəfindən həyata keçirilən proqram və layihələr üzrə cəlb edilmiş öhdəliklər olub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[A]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Əhalinin 91 faizi İlham Əliyevin idarəçiliyindən məmnundur - Sorğu

***Azərbaycan əhalisi arasında Prezident İlham Əliyevin idarəçiliyindən məmnunluq 91 faiz təşkil edir.***

"Unikal" xəbər verir ki, bu, Azərbaycanda sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində "exit-poll" keçirmək üçün yerli tərəfdaşı ilə birgə Mərkəzi Seçki Komissiyasında qeydə alınan



İtaliyanın SWG SPA şirkətinin 15 iyul-15 avqust tarixləri arasında keçirdiyi seçkiöncəsi sorğunun nəticələrində öz əksini tapıb.

Sorğunun nəticələrinə görə, rəyi soruşulanların 81 faizi Prezident İlham Əliyevin idarəçiliyini qətiyyətli şəkildə, 10 faizi müəyyən dərəcədə dəstəklədiyini, 5 faiz isə dəstəkləmədiyini bildirib.

Sorğu iştirakçılarının 4 faizi cavab verməkdə çətinlik çəkib.

# İlham Əliyev və Mehriban Əliyeva Özbəkistanda səfərdədir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Özbəkistan Respublikasına dövlət səfərinə gedib.***

"Unikal" xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşılayıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər. Dövlətimizin başçısının şərəfinə burada fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Məlumat verilib ki, Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə ucaldılan abidə özbək xalqının üç min illik tarixini əks etdirir. Yeni abidə paytaxt yaxınlığında yerləşən, ölkənin müstəqilliyinin ildönümünə həsr olunan "Yangi Uzbekiston" ("Yeni Özbəkistan") kompleksinin mərkəzində yerləşir. Altmış metr hündürlüyündə abidə görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti ilə əlamətdar olan dövrü əks etdirir.

Abidənin üzərində Özbəkistan tarixində qədim vaxtlardan müasir dövrədək baş verən mühüm hadisələr təsvir edilib.



Kompleksdə əsasən sərkərdə və döyüşçülərin, alim və mütəfəkkirlərin, maarifçilərin obrazları əks olunub. Müstəqillik abidəsini sülhü, azadlığı, xeyirxahlığı və xoşbəxtliyi tərənnüm edən, qanadları geniş açılmış Humay quşunun obrazı tamamlayır.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva burada xatirə şəkli çəkdiriblər.

# Daha 4 müəssisədə məhkumlara ödənişsiz hüquqi yardım göstərilib

***Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə Vəkillər Kollegiyası arasında imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq, məhkumlara pulsuz peşəkar hüquqi yardımın göstərilməsi prosesi davam etdirilir.***

"Unikal" xəbər verir ki, avqustun 22-də Penitensiar Xidmətin 1, 6, 15 saylı cəzaçəkmə müəssisələrində və Müalicə müəssisəsində saxlanılan ümumilikdə 100 nəfər məhkum



yaradılmış bu imkandan istifadə edib.

"Femida", "Kredo", "Universal", "Union" və "Faiq Nağıyev və Partnyorları" Vəkil bürolarının vəkilləri tərəfindən onlara mülki və cinayət qanunvericiliyinin müddəaları izah olunub, hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində sualları cavablandırılıb.

Xatırladaq ki, tədbirlər Planına uyğun olaraq, cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında məhkum və həbs edilmiş şəxslərə pulsuz hüquqi yardım aksiyalarının keçirilməsi davam etdiriləcək.

# MİQ üzrə müsahibə mərhələsinin sonuncu günündə 161 nəfər iştirak edib

***Müəllimlərin işə qəbulu (MİQ) müsabiqəsinin müsahibə mərhələsinin sonuncu günündə - avqustun 22-də ingilis dili və coğrafiya fənləri üzrə müsahibələr təşkil edilib.***

Təhsil İnstitutu nəzdində İnsan Resursları Mərkəzindən "Unikal"a bildirilib ki, müsahibələrə 167 nəfər dəvət olunub.

Onlardan 161 nəfəri müsahibə mərhələsində iştirak edib.



29_27 IYUl-QARA.qxd 8/22/2024 11:06 PM Page 6



# Azərbaycanda meymunçiçəyinə yoluxma qeydə alınıb? - RƏSMİ




***Azərbaycan ərazisində bugünədək meymunçiçəyi xəstəliyinə şübhəli hallar qeydə alınmayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb. Bildirilib ki, bu istiqamətdə Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən ciddi epidemioloji nəzarət aparılır, yoluxmaya şübhəli şəxslərin aşkarlanması, diaqnostikası və müalicəsi üçün müvafiq resurslar mövcuddur.

Qeyd edilib kii, meymunçiçəyi çox nadir hallarda rast gəlinən zoonoz virus xəstəliyidir, yəni bu xəstəlik insana əsasən heyvandan keçir.

Xəstəliyin inkubasiya dövrü 5-21 gün arasında dəyişə bilər. Xəstəlik adətən 2-4 həftə davam edir. Başlanğıc dövründə qeyd edilən kataral əlamətlər (hərarət, şiddətli başağrı, limfa düyünlərinin böyüməsi) sonradan səpgi dövrünə keçir. Səpgilər eyni inkişaf mərhələsində olmaqla bütün bədəni əhatə edir. Bir neçə gün davam edən səpgi eyni vaxtda qartmaq əmələ gətirməklə, yerində çapıq toxumasının əmələ gəlməsi ilə sağalır.

Məlumatda bildirilib ki, infeksiya insandan insana uzunmüddətli sıx təmas nəticəsində tamlığı pozulan dəri və selikli qişalar vasitəsilə ötürülür. Xəstəliyə xas olan kliniki əlamətlər əmələ gəlməyənə qədər xəstə və ya onunla təmasda olan şəxslər yoluxucu hesab edilmir.

"Xəstəlik adətən özünüməhdudlaşdıran xüsusiyyətə malikdir, yəni ağırlaşmayan hallar heç bir müalicə olmadan sağalır. Əksər xəstələrdə meymunçiçəyi yüngül formada keçdiyi üçün, simptomatik müalicə kifayət edir".

Bu günə qədər TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində meymunçiçəyi xəstəliyinə yoluxma halına rast gəlinməyib. Bu barədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) məlumatında qeyd olunub. Bildirilib ki, yoluxma şübhəsi olan xəstədən qaydalara uyğun olaraq nümunə götürülərək ərazi üzrə Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərən Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə göndərilir.

Hazırda TƏBİB tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində xəstələrin müalicəsi üçün uyğun infrastruktur mövcuddur. Tibb müəssisələri virus əleyhinə dərman vasitəsi ilə təmin olunub. "Eyni zamanda qeyd edirik ki, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) mütəxəssisləri tərəfindən birgə hazırlanan meymunçiçəyi xəstəliyinin diaqnostika və müalicəsi üzrə klinik protokol mövcuddur. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının 14 iyun 2022-ci il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş bu protokol ilkin səhiyyə xidmətində çalışan terapevtlər, pediatrlar, ailə həkimləri, təcili tibbi yardım həkimləri, həmçinin yoluxucu və dəri-zöhrəvi xəstəliklər üzrə mütəxəssislər üçün nəzərdə tutulub", - deyə məlumatda qeyd olunub.

# Dəmir yolu xəstəxanaları Səhiyyə Nazirliyi və TƏBİB-in tabeliyinə verildi

***"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Həkim-Sanitar Xidmətinin Yol Gigiyena və Epidemiologiya Mərkəzi və Yol Sanitar-Karantin Müfəttişliyi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyinə verilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Həkim-Sanitar Xidmətinin tibb müəssisələri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyinə verilib. Eyni zamanda, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Əncirli stansiyası ünvanında olan Əncirli Uşaq Dəmir Yolu Xəstəxanasının yerləşdiyi əmlak kompleksi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sərəncamına verilib.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti bu Qərarın 1-ci və 2-ci hissələri




icra olunduqdan sonra "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Həkim-Sanitar Xidmətinin qanunvericiliyə uyğun olaraq ləğv edilməsi ilə bağlı müvafiq tədbirlər görməli və nəticəsi barədə Nazirlər Kabinetinə məlumat verməlidir.

Səhiyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn digər məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etməlidirlər. Bu Qərarın 1-ci və 2-ci hissələri 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılıb ki, 2025-ci ilin dövlət büdcəsinin və icmal büdcənin layihələri hazırlanarkən bu Qərardan irəli gələn maliyyələşdirmə məsələlərini nəzərə alsın.

Qərar Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin razılaşdırılmış təkliflərini nəzərə alaraq qəbul edilib.

## Seçki bülletenlərinin dairə seçki komissiyalarına verilməsinə başlanılır

***Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçki bülletenlərinin Mərkəzi Seçki Komissiyasından (MSK) dairə seçki komissiyalarına verilməsinə başlanılır.***

"Uniakl" xəbər verir ki, bununla bağlı MSK sədri Məzahir Pənahov qurumun bu gün keçirilən iclasında məlumat verib.

Onun sözlərinə görə, görmə qabiliyyətində müəyyən problemlər olan seçicilər üçün Brayl əlifbası ilə trafaret çap edilib, bütün seçki dairələrinə göndərilib: "125 trafaret hazırlanıb və istisnasız bütün seçki məntəqələrinə çatdırılacaq".

Qeydn edək ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"na əsasən, seçki bülletenlərinin hazırlanması prosesi avqustun 22-dək başa çatdırılmalı idi. Proses yekunlaşdırılıb. Təqvim planına əsasən, seçki bülletenlərinin MSK-dan DSK-lara verilməsi avqustun 27-dək yekunlaşdırılmalıdır.

Xatırladaq ki, Prezident İlham Əliyev iyunun 28-də altıncı çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib.

## Dövlət Agentliyinin əməkdaşları təltif edildi

***Azərbaycan Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Dövlət Agentliyinin aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif ediliblər:

Babayev Əli Aydın oğlu - polkovnik-leytenant
Fərzəliyev Teymur Qaçay oğlu - polkovnik-leytenant
Hüseynov Tofiq Qabil oğlu - polkovnik-leytenant
Abdullayev Ülvi Saleh oğlu - mayor
Məmmədyarov Kənan Ramiz oğlu - mayor
Əliyev Aleksey Ələmət oğlu - kapitan
Qurbanov Anar Eldar oğlu - kapitan
Mehrəliyev Zahir Şakir oğlu - kapitan
Abdullayev Rövşən Vəliş oğlu - baş çavuş
Əlizadə İlqar Qoşqar oğlu - baş çavuş
Əmirov Pərviz Vaqif oğlu - baş çavuş
Zeynalov Timur Bulud oğlu - baş çavuş.

## Veb-kameralar 119 seçki dairəsini əhatə edir

***119 seçki dairəsini əhatə edən 1000 seçki məntəqəsində quraşdırılmış veb-kameraların tənzimlənməsi prosesi aparılır.***

"Unikal" xəbər verir ki, bununla bağlı Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında MSK sədrinin müavini Rövzət Qasımov deyib.

O qeyd edib ki, bütün texniki addımların atılması və veb-kameraların siyahısının dərc olunması təmin ediləcək.

## Vətən müharibəsi şəhidinin anası vəfat edib

***Vətən müharibəsi şəhidi, Vətən Müharibəsi Qəhrəmanı Orxan Cabbarovun anası vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə sosial şəbəkədə məlumat paylaşılıb. Şəhidin anası Yeganə Rüstəmova uzun sürən xəstəlikdən dünyasını dəyişib.

Qeyd edək ki, 1995-ci il təvəllüdlü Orxan Cabbarov 44 günlük Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Hadrutun, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şuşa döyüşləri zamanı şəhid olub.

Ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Ailəli idi. Bir oğlu yadigar qalıb.

## 2471 seçki məntəqəsində panduslar quraşdırılıb

***Gözdən əlilliyi olan seçicilərin sərbəst səs verməlri üçün 125 seçki dairəsinə trafaret veriləcək.***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

O bildirib ki, ümumilikdə 2471 seçki məntəqəsində panduslar quraşdırılıb.

29_27 IYUl-QARA.qxd 8/22/2024 11:06 PM Page 7



# Mərkəzi Bankın Baş direktoru işdən çıxdı



***Azərbaycan Mərkəzi Bankının (AMB) Baş direktoru Fərid Osmanov işdən çıxıb.***

"Unikal" xəbər verir ki, AMB-nin Baş direktorlarının sayı 9-a düşüb.

# Anar Məmmədlinin həbs müddəti uzadıldı



***Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli barəsində seçilmiş həbs qətimkan tədbiri müddəti uzadılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Xətai rayon Məhkəməsində hakim Bəxtiyar Məmmədov tərəfindən qərar qəbul edilib.

Qərara əsasən, onun barəsində həbs qətimkan tədbirinin müddəti daha 3 ay uzadılıb.

Xatırladaq ki, A.Məmmədli bu ilin aprel ayında saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 206.3.2 (qaçaqmalçılıq-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb. Daha sonra Xətai Rayon Məhkəməsinin qərarı ilə A.Məmmədli barəsində 3 ay 28 gün müddətinə həbs qətimkan tədbiri seçilib.

# Azərbaycanda ilk: Fiziki şəxslərin banklardakı əmanətləri 8 milyardı ötdü



***İyulda fiziki şəxslərin əmanətlərinin 65,7 faizi (8,981.7 milyon manat) milli valyutada, 34,3 faizi (4,679.3 milyon manat) xarici valyutadadır.***

"Unikal" Mərkəzi Banka istinadla xəbər verir ki, fiziki şəxslərin əmanət portfelinin 59,1 faizi (8,067.7 milyon manat) müddətli əmanətlərdən ibarətdir. Fiziki şəxslərin müddətli əmanətləri iyul ayı ərzində 4,1 faiz və ya 317 milyon manat artaraq ilk dəfə 8 milyard manatlıq həddi keçib. Hüquqi şəxslərin tələbli depozitləri 15,391.5 milyon manat olmaqla, hüquqi şəxslərin cəmi depozit portfelinin 74,3 faizini təşkil edib.

Fiziki şəxslərin əmanətlərinin (fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitləri daxil olmaqla) dollarlaşması iyul ayında əvvəlki ilin müvafiq dövrünə nəzərən 2,7 faiz bəndi azalaraq 33,7 faiz təşkil edib. Bu ilin yanvar-iyul aylarında banklar tərəfindən 682,8 milyon manat xalis mənfəət, 1,016 milyon manat məbləğində əməliyyat mənfəəti generasiya edilib (ötən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 4,2 faiz və 9,1 faiz daha çox).

Cari ilin 7 ayında banklar tərəfindən ümumilikdə 153,4 milyon manat məbləğində mənfəət vergisi ödənilib.

# Azərbaycanda pensiyaçıların sayı 4440 nəfər azalıb

***Bu ilin iyulun 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1101,0 min (ötən ilin iyulun 1-i vəziyyətinə 1096,6 min) pensiyaçı qeydiyyatda olub ki, bu da ölkə əhalisinin 10,8 faizini təşkil edir.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsinin yaydığı məlumatda bildirilib.

Qeyd olunub ki, onların 64,4 faizi yaşa, 23,3 faizi əlilliyə, 12,3 faizi isə ailə başçısını itirməyə görə pensiya alır. Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,9 faiz artaraq 491,3 manat təşkil etmiş və orta aylıq əməkhaqqının 49 faizinə bərabər olub.

Ölkədə pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Azərbaycan Prezidentinin 2024-cü il 5 fevral tarixli 4291 nömrəli sərəncamına əsasən 2024-cü ilin 1 yanvar tarixindən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyaları indeksləşdirilərək 11,2 faiz artırılıb.

# "Virusun bu forması nisbətən ağırdır və mutasiyaya uğramış formadır"

## Adil Qeybulla: "İnsanlar özlərini meymunçiçəyindən qorumaq üçün ilk növbədə təmaslardan qaçmalıdırlar"

***Tibb elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. O, meymunçiçəyi virusunun əlamətlərindən, insanların bu xəstəlikdən qorunması üçün nələrə əməl etməli olduğundan və Azərbaycan ərazisində meymunçiçəyi xəstəliyinə yoluxma halının olub-olmayacağından danışıb.***

***-Adil müəllim, məlum olduğu kimi, bəzi ölkələrdə meymunçiçəyi virusuna yoluxma halları qeydə alınıb. İlk növbədə ondan başlayaq ki, meymunçiçəyi virusu nədir və ilkin əlamətləri hansılardır?***

-Meymunçiçəyi virusu ortopoxvirus qrupuna, yəni, çiçəkvirusu qrupuna aiddir. Bura həm də suçiçəyi (chickenpox) və təbii çiçək (smallpox) aid olunur. Hər üç virus növü insanlarda müxtəlif dərəcəli xəstəlik törədir. Bunların hər biri dəridə müxtəlif əlamətlərlə xarakterizə olunur. Meymunçiçəyi virusunun klinik gedişi təbii çiçəyə daha yaxındır.Təbii çiçək 4 karantin infeksiyasından biridir. Bunlar taun, vəba, sarı qızdırma və təbii çiçəkdir. Meymunçiçəyi virusunun əlamətləri təbii çiçəyə oxşayır. Doğrudur, təbii çiçək daha ağır xəstəlikdir və pandemiyaya meyillidir. 1980-ci illərdə təbii çiçək vaksinasiya nəticəsində yoxa çıxdığından bu gün 42 yaşdan aşağı şəxslər vaksinasiyasızdır. Amma meymunçiçəyi virusu son 4-5 ildə epidemik ocaqlar şəklində yayılmağa başlayıb. Əvvəlcə bunların homoseksuallar arasında seksual yolla keçən forması Avropa və ABŞ-də qeydə alınmağa başladı. Bunun qarşısı alındı. Hazırkı variant mutasiya olunmuş formadır və təmas yolu ilə keçir. Ona görə də yaxın təmaslar çox təhlükəlidir. Yəni, hava-damcı yolu ilə deyil, təmasla keçir. Meymunçiçəyi virusunun prodromal dövrü 3 həftəyə qədər davam edə bilər. Bu o deməkdir ki, yoluxmuş adam bir ölkəyə sağlam şəkildə daxil olar və orada xəstəliyin əlamətləri ortaya çıxa bilər. Xəstəliyin ilkin əlamətləri yüksək hərarət, baş, bel, əzələ ağrıları, ümumi halsızlıq, zəiflik və əzginlikdir. Nəticədə dəridə içərisi ağ və sarı maye ilə dolu qabarcıqlar əmələ gəlir. Buna pustula deyirlər. Pustulanın əmələ gəlməsi ilə xarakterizə olunur. Virus 2-4 həftəyə qədər orqanizmdə xəstəlik şəklində davam edə bilər. Qeyd edilir ki, xəstəliyin gedişində ölüm halları da mümkündür. Virusun bu forması nisbətən ağırdır və mutasiyaya uğramış formadır.

***-İnsanlar özlərini bu xəstəlikdən qorumaq üçün nələrə əməl etməlidir?***

-İnsanlar özlərini meymunçiçəyindən qorumaq üçün ilk növbədə təmaslardan qaçmalıdırlar. Yaxın təmaslar nəticəsində, yəni, dərinin dəriyə dəyməsi zamanı virus başqasına yayılır. Ona görə də təmaslardan qorunmaq lazımdır. Hətta Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) riskli elan etdiyi ölkələrdən gələn bağlamalara, onlayn sifarişlərə diqqətli olmaq lazımdır. Yaxşı olardı ki, həmin bağlamalar əlcəklə açılsın, qablaşdırılma səthi sterilizə olunsun və bundan sonra istifadə edilsin. Bunlara diqqət etmək lazımdır. Mümkün qədər təmaslardan qorunsaq, xəstəlikdən də qoruna bilərik.

***-Azərbaycan ərazisində bugünədək meymunçiçəyi xəstəliyinə yoluxma hallar qeydə alınmayıb. Xəstəlik dünyada geniş yayılarsa, ölkəmizdə də yoluxma ola bilərmi?***

-Məsələ bundan ibarətdir ki, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən virusun xəstəlik törətmə qabiliyyəti indeksinin yüksək olduğu nəzərə alınaraq, ən yüksək fövqəladə hal elan edilib. Bu, təsadüfi deyil. Belədirsə, bütün ölkələr ÜST-ün tövsiyəsi əsasında hərəkət etməlidirlər. Transsərhəd keçid zonalarına nəzarət gücləndirilməli, əhali maarifləndirilməli və tibb sistemi mobilizə olunmalıdır. Ölkədə yayılma həmişə mümkündür. Bəzi şəxslər mətbuatda bunun Azərbaycanda mümkün olmamasını qeyd edirlər. Bu, yanlış yanaşmadır. Koronavirusda da bu cür fikirlər çox idi. Biz qloballaşan dünyada yaşayırıq. İstənilən infeksiya ölkəmizə daxil ola bilər. Bunun qarşısını almaq üçün hazır olmalıyıq. Çalışmalıyıq ki, ölkəmizə daxil olmasın. Amma daxil olacağı təqdirdə infeksiyanı yerində lokallaşdırmalıyıq. Düşünmürəm ki, meymunçiçəyi virusu pandemiya yaradacaq. Hesab edirəm ki, ayrı-ayrı ölkələrdə epidemik ocaqlar ola bilər. Bunun özü də dünya iqtisadiyyatı və ölkələr üçün problemdir. Biz koronavirus pandemiyasında həm insan, həm də iqtisadi itkiləri gördük. O baxımdan xəstəliklə vaxtında mübarizə, düzgün profilaktika, maarifləndirmə bizi xeyli bu problemdən uzaqlaşdıra bilər. Digər tərəfdən əgər xəstəlik Afrika ərazisindən daha çox kənara çıxsa, bu zaman vaksinasiya məsələsi gündəmə gələcək. İlk növbədə vaksin hazırlanmalı sonra isə kütləvi istehsala başlanmalıdır. Təbii çiçəyə qarşı olan antiviral dərmanlar, suçiçəyi vaksini də burada effektivdir. Mutasiya variantının sonradan hansı əlamətlər göstərəcəyini bilmirik. Bu baxımdan yayılma tendensiyası baş verəcəksə, o zaman vaksinin kütləvi istehsalına başlamaq zərurəti ola bilər.



***Anar Kəlbiyev***

29_27 IYUI-QARA.qxd 8/22/2024 11:07 PM Page 8



# Məleykə Abbaszadənin bitmək bilməyən qovğası

## DİM rəhbəri kimlərə açıq mesaj göndərdi?



***Bu günlərdə sosial şəbəkələrdə köhnə mövzuya yenidən "can verildi": test üsulu ilə bağlı imtahanların ləğv ediləcəyinə dair növbəti dəfə xəbərlər yayıldı.***

Xatırladaq ki, 1992-ci ildən ali məktəblərə qəbul imtahanları test imtahanı formatından istifadə olunmaqla həyata keçirilir. Əksər ekspertlərin fikrincə, test imtahanı sisteminin əsas üstünlüyü insan faktorundan asılılığının minimal olmasıdır. Bu, rüşvət, tapşırıq kimi sovetdən qalma vərdişlərdən hələ də xilas ola bilməyən ölkəmizdə böyük üstünlükdür. Bir sözlə, test imtahanları obyektivlik deməkdir.

Lakin 2017-ci ildən etibarən test imtahanının ləğv ilə bağlı xəbərlər, fikirlər mütəmadi şəkildə dövriyyəyə buraxılır. Bildirilir ki, 2008-2009-cu tədris ilindən Azərbaycan orta məktəbləri kurikulum standartlarına keçib. "Bu sistemdə oxuyan məktəblilər əvvəlkilərin əldə etdikləri bilik və bacarıqlara görə fərqlənirlər. İndiyə qədər qəbul imtahanlarında qapalı, yəni cavab variantları olan test tapşırıqlarından istifadə olunurdu. Lakin 2010-cu ildən sonrakı nəticələri təhlil etdikdə görürük ki, bu, artıq özünü doğrultmur. Buna görə də təhsil sistemimizdə qiymətləndirmədə məzmun standartlarını ölçmək üçün yeni alətlərin istifadəsinə ehtiyac yaranıb" deyənlər var. Onların yanaşması isə cəmiyyətdə test imtahanlarının ləğvinə zəmin hazırlamaq kimi anlaşılır və qiymətləndirilir.

Bəzilərinin fikrincə, test üsulunun ləğvini istəyənlər və qəbul imtahanlarında insan faktorunun ön plana çıxmasına imkan verən metodların tətbiqini arzulayanlar belədə sovet zamanı dəb halını almış rüşvət, tapşırıq kimi zərərli "ənənələrin" geri qayıtmasına necə təminat verirlər? Ümumiyyətlə, doğrudanmı, test sisteminin ədalətliliyini, şəffaflığı, obyektivliyini və birbaşa, ya da dolayı yolla şübhə altına alanlar xoşniyyətlidirlər?

Bu sualın cavabına keçmədən xatırladaq ki, Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə testin ləğvi ilə bağlı ilk xəbərlərin, fikirlərin ortaya atıldığı günlərdən bəri belə iddialara kəskin reaksiya verir. Hətta rəhbərinin bu cür fikir və mövqe sahibləri ilə faktiki olaraq açıq şəkildə mübarizə apardığını söyləmək də olar. Təsadüfi deyil ki, yola salmaq üzrə olduğumuz həftə oxşar iddialar yenidən dövriyyəyə buraxılınca Məleykə xanım məsələyə növbəti dəfə və konkret münasibət bildirdi.

"Hamı bilir ki, test üsulu ilə imtahanlarda hər kəsin biliyi düzgün qiymətləndirilir. Və bu biliyə uyğun olaraq da imtahan verən şəxs yer tutur" deyən Abbaszadə əlavə elədi ki, test üsulu ilə imtahanların ləğv edilməsindən söhbət belə gedə bilməz: "Bu üsulda biliyin qiymətləndirilməsi şəffaf aparılır. Bu sistemdə kiməsə çətin, kiməsə asan sualları vermək yoxdur".

İndi isə gələk əsas məsələyə - Azərbaycanda test üsulu ilə imtahanların ləğvi məsələsi nə üçün mütəmadi şəkildə gündəmə gətirilir? Bunda kimlər və niyə maraqlıdırlar?

Bəzilərinin fikrincə, illər keçdikcə test imtahan forması ümumtəhsil məktəblərindəki təhsilin məzmununu aşağı salıb, qruplar ayrılıb və hər qrupa 3-4 fənn daxil edilib. Nəticədə öncə 9-10-cu, sonradan isə hətta daha aşağı siniflərdən başlayaraq şagirdlər repetitorlar yanına getməklə konkret suallara cavablar axtarmağa başladılar, bununla şagirdlərin hərtərəfli inkişafı sıradan çıxdı, dünyagörüşü azaldı. "Xüsusilə, son illər ali məktəbə qəbul olanlardan hər hansı bəstəkar və ya ölkənin iqtisadiyyatında, mədəniyyətində önəmli rol oynamış şəxslər barəsində soruşanda heç bir məlumat verə bilmirdilər. Deməli, hazırkı formada test üsulu ilə qəbul artıq ziyan vurmağa başlayıb" deyənlər hesab edirlər ki, obyektivlik, ədalət, şəffaflıq prinsiplərini qorumaqla Dövlət İmtahan Mərkəzinin test üsulu ilə qəbulda yeni və dəqiq forma tapması lazımdır. Ardınca isə belə mülahizələr irəli sürülür ki, testə mühafizəkar yanaşması ilə bilinən Məleykə Abbaszadənin rəhbərliyi altında bu cür formanın tapılması mümkünsüz görünür. Beləliklə, söhbət həm də DİM rəhbərliyində dəyişikliyin zəruriliyi üzərinə gətirilir. Yəni anlaşılan odur ki, testin ləğvi məsələsi Abbaszadə ilə onun naməlum rəqibləri arasında gizli qovğanın bir elementinə çevrilib. Unutmayaq ki, xüsusilə son iki ildə hər dəfə universitetlərə qəbul imtahanları yekunlaşınca DİM rəhbərinin təqaüdə göndəriləcəyi yönündə iddialar intensivləşir. Bu il isə belə görünür həmin mövzu testin ləğvinə dair iddialar fonunda aktuallaşdırılıb...

***Sənan Mirzə***

# Baş nazirdən Sumqayıt Kimya Sənaye Parkı ilə bağlı sərəncam



***Baş nazir Əli Əsədov "Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" ölkə Prezidentinin 30 iyul 2024-cü il tarixli sərəncamının icrasının təmin təmin etmək məqsədilə yeni sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncama əsasən, Sumqayıt Şəhər İcra Hakimiyyəti İqtisadiyyat Nazirliyi və Dövlət Neft Şirkəti ilə razılaşdırmaqla, Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə Sumqayıt şəhərinin inzibati ərazisində yerləşən və tərtib edilmiş yerquruluşu planlarına əsasən, "Azərikimya" İstehsalat Birliyinin istifadəsində olan 26,86 hektar və həmin torpaq sahəsinə bitişik 2,77 hektar olmaqla, ümumilikdə dövlət mülkiyyətinə aid 29,63 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə həmin Nazirliyin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin istifadəsinə verilməsini 20 gün müddətində təmin etməli və bu barədə Nazirlər Kabinetinə məlumat verməlidir.

İqtisadiyyat Nazirliyi, SOCAR və Sumqayıt Şəhər İcra Hakimiyyəti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

Sərəncamın 1-ci hissəsinin icrası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilib.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# "Koronavirusa yoluxma ilə bağlı ciddi artım yoxdur" - SN

***Yeni koronavirus infeksiyası bildiyimiz kimi vaxtaşırı dalğalanmalar ilə təzahür edir.***

"Unikal" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib.

O bildirib ki, hazırda istər bizə qonşu, istərsə də ABŞ-da və Avropanın bəzi ölkələrində bunu müşahidə etmək olar: "Bu ölkələrdə yayılan Omikron ştamının alt növləridir ki, onlar da sürətli yoluxuculuğuna baxmayaraq əksərən yüngül formalı xəstələnməyə səbəb olurlar. Azərbaycana gəldikdə onu demək olar ki, vaxtaşırı çox cüzi dalğalanmalar olsa da, diqqət ediləsi əhəmiyyətli artımlara rast gəlinmir. Epidemioloji durum qənaətbəxş hesab edilir və nəzarət olunandır. Bu infeksiyadan qurunma tədbirləri digər hava-damcı infeksiyaları zamanı (kəskin respirator virus infeksiyaları, qrip) tətbiq olunan vasitələrlə eynidir. Xüsusi olaraq risk qrupuna daxil olan insanların (hamilə qadınlar, immundefisitli, ağır xroniki xəstəliyi olanlar, ahıl şəxslər) daha ehtiyatlı olmaları tövsiyə olunur".

# 49 nəfər ali məktəblərə imtahansız qəbul olunub

***Azərbaycanda bu il 49 nəfər ali məktəblərə imtahansız qəbul olunub.***

Onlar beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləridir. Məlumata görə, universitetlərə müsabiqədənkənar qəbul olunan məzunlardan üçü beynəlxalq olimpiyadaların qalibidir. Onlar təhsillərini xaricdə davam etdirəcək. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarına uyğun olaraq, beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar.

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;
- IX-XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yer tutmuş şəxslər;
- beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.

Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti iki tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibi isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti beş tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ var.



# Bakıda Boneyra adasına həsr olunmuş beynəlxalq konfrans keçirilir

***Avqustun 22-də "Boneyra adasının Bakıdan keçən BMT Baş Assambleyasındakı öz müqəddəratını təyinetmə yolu" mövzusunda beynəlxalq konfrans keçirilir.***

Bakı Təşəbbüs Qrupu və Boneyra İnsan Hüquqları və Dəyişiklik naminə Hərəkatının birgə təşkilatçılığı ilə baş tutan tədbir Niderlandın müstəmləkəçiliyi altında olan Boneyra adasına həsr edilib.

Konfransda kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan Boneyra xalqının təmsilçiləri, habelə Beliz, Sent-Vinsent və Qrenadin, Surinam, Sent Lüsiya, Böyük Britaniya, Meksika, Niderland və başqa ölkələrin nümayəndələri, BMT və digər beynəlxalq təşkilatların rəsmiləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak edirlər.

Tədbir iştirakçıları Niderlandın əsarəti altında olan Boneyra xalqının müstəmləkəçilikdən azad olmaq uğrunda apardığı mübarizə, habelə problemin aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması istiqamətində görülən işlər, beynəlxalq hüquqi imkanlar barədə müzakirələr aparacaqlar.

Konfransın təşkilində məqsəd Boneyra adasının BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına yenidən salınması üçün bir sıra dövlətlər tərəfindən BMT Baş Assambleyasına təqdim edəcəyi qətnamə layihəsi ilə bağlı beynəlxalq ictimaiyyətin dəstəyinin əldə edilməsidir.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılıb. Qrup XXI əsrdə dünyanın müxtəlif bölgələrində hələ də müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

# Əsabəli Mustafayevin vəziyyəti açıqlandı

***Səhhəti ilə bağlı xəstəxanaya yerləşdirilən Azərbaycan Vəkillər Kollegiyasının üzvü Əsabəli Mustafayevin vəziyyəti açıqlanıb.***

Sumqayıt Tibb Mərkəzindən "Unikal"a bildirilib ki, Ə.Mustafayev avqustun 17-si saat 17:30-da Sumqayıt Tibb Mərkəzinin 2 nömrəli Xəstəxanasına hospitalizasiya olunub.

Törədicisi dəqiləşdirilməmiş pnevmoniya diaqnozu qoyulan Ə. Mustafayev ağır vəziyyətdə Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinə yerləşdirilib.

"Pasiyentə bütün zəruri tibbi xidmətlər göstərilib və vəziyyəti stabilləşdikdən sonra ötən gün Terapiya şöbəsinə köçürülüb. Müalicə tədbirləri davam etdirilir", - deyə məlumatda qeyd olunub.

# İcra başçılarının "qara qutuları"

## Onlar özlərində rayon rəhbərlərinin hansı qanunsuz əməllərini gizlədirlər?

***Yola salmaq üzrə olduğumuz həftə Daşkəsən Rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin müdiri, baş memar Elman Məmmədovun cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb. Yerli KİV-in məlumatına görə, cinayət işinin materialları Daşkəsən Rayon Məhkəməsinə göndərilib. İş hakim Kənan Vəliyevin icraatına verilib. Baxış iclası 04.09.2024-cü il tarixinə təyin edilib.***

Məmmədov Elman Məcid oğluna qarşı yekun olaraq Cinayət Məcəlləsinin 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) maddəsi ilə ittiham elan olunub.

Qeyd edək ki, bu ilin iyun ayında Daşkəsən rayon İcra Hakimiyyətində əməliyyat keçirilib. Hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatla memarlıq və tikinti şöbəsinin müdiri Elman Məmmədov və ümumi şöbənin işçisi Yaqub Bayramov saxlanılıb.

Qeyd edək ki, son bir neçə ildə xeyli rayonun baş memarı həbs edilib. Məsələn, bir il öncə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirlərilə Tərtər Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Memarlıq və tikinti şöbəsinin müdiri - baş memar vəzifəsində işləyən Tofiq Kərimov vətəndaşdan rüşvət alarkən cinayət başında yaxalanıb. Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən məlumatda bildirilib ki, Tofiq Kərimovun Tərtər şəhərində yerləşən torpaq sahəsində 2 mərtəbəli yaşayış evinin tikilməsinə icazə verilməsi üçün vətəndaşdan tələb etdiyi 33 min manat məbləğində pul vəsaitinin 25 min manatını almasına əsaslı şübhələr müəyyən edilib. Həmin vəzifəli şəxsin xidməti otağında aparılmış axtarış zamanı iş üçün əhəmiyyət kəsb edən sübutlar aşkar edilərək götürülüb. Faktla bağlı başlanmış cinayət işi üzrə Tofiq Kərimov Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələrilə təqsirləndirilən şəxs qismində cəlb edilib və məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Yaxud, bir müddət öncə Cəlilabad Rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin müdiri, baş memar Sahil Qənbərlinin cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb. Qeyd edək ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən tikintiyə icazələrin verilməsi sahəsində baş verən korrupsiya hallarına qarşı keçirilmiş əməliyyat-axtarış tədbirləri çərçivəsində Cəlilabad Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Memarlıq və Tikinti şöbəsinin müdiri, baş memar Sahil Qənbərli (eləcə də Cəlilabad bələdiyyəsinin sədri Mehdi Kərimov və rayonun Üçtəpə bələdiyyəsinin sədri Əmrah Quliyevin qanunsuz əməlləri ifşa edilib). Həyata keçirilmiş tədbirlərlə Sahil Qənbərlinin Mehdi Kərimovla əlbir olaraq Cəlilabad şəhəri ərazisində torpaq sahələrinin ayrılması və sahibkarlıq obyektinin tikintisinə icazə verilməsi üçün vətəndaşlardan ümumilikdə 44 min manat məbləğində pul vəsaitini almasına əsaslı şübhələr müəyyən edilib və həmin şəxslər cinayət başında yaxalanıb. Göstərilən faktlarla bağlı başlanmış cinayət işi üzrə Sahil Qənbərli müvafiq olaraq Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.1, 311.3.2 və 311.3.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar və külli miqdarda rüşvət alma) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub.

Bundan başqa, son bir neçə ildə Gəncə Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma İdarəsinin rəisi - baş memar vəzifəsində çalışmış Əli Rüstəmov, Abşeron rayon İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin sabiq müdiri (baş memar) Akif Əliyev də rüşvət, vəzifə səlahiyyətlərindən sui-istifadə kimi qanunsuz əməllər səbəbindən cinayət məsuliyyətinə cəlb ediliblər, həbs olunublar. Siyahını daha da uzatmaq mümkündür.

Bəs rayon və şəhər baş memarlarının həbsinə səbəb nədir? Bu barədə qəzetimizə danışan adının çəkilməsini istəməyən ekspert bildirib ki, sözügedən vəzifə sahibləri əslində rayon rəhbərlərinin "sağ əlləri" sayılır, eyni zamanda onların "qara qutuları" hesab edilirlər: "Baş memarlar bir qayda olaraq bütün qanunsuz işlərə məhz onların icazəsi ilə imza atırlar. Bu qanunsuzluqlara



əsasən tikinti üçün hər hansı layihə hazırlanmadan və rayon İcra hakimiyyətinə tikintiyə icazə üçün rəsmi qaydada müraciət olunmadan, müvafiq zəruri sənədləşmə aparılmadan tikinti aparılması üçün ümumi himayədarlıqdan tutmuş rüşvət alma (məsələn, ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin, texniki qurğuların, neft buruları, avtomobil yollarının və ya suların mühafizə zonalarında torpaq sahələri, yaxud kənd təsərrüfatı təyinatlı torpaq sahələrini ayırma, tikinti, ya da quraşdırma işlərinin aparılmasına icazə vermək müqabilində) kimi müxtəlif cinayət daxildir. Lakin maraqlı burasıdır ki, belə cinayətlərə görə adətən yalnız baş memarlar cəzalandırılır, onların qanunsuzluqlarına faktiki olaraq "yaşıl işıq" yandıran, göz yuman icra başçıları isə hüquqi məsuliyyətdən kənarda qalırlar. Fikrimcə, rayon rəhbərlərinin "qara qutuları" olan baş memarların həbsi bir növ onların axırda "günah keçilərinə" çevrilməsi" kimi qiymətləndirilməlidir".

Həmsöhbətimizin fikrincə, hər hansı rayonda sadalanan cinayət əməllərinin yalnız baş memarların ayağına yazılmasının iki səbəbi ola bilər: ya rayon rəhbərləri nüfuzları və maddi gücləri ilə "sudan quru çıxmağa" nail olurlar, ya da baş memarlarla xəlvəti şəkildə anlaşaraq özlərini hüquqi məsuliyyətdən kənarda saxlamağı bacarırlar. İstənilən halda, bir rayonun baş memarı, məsələn, külli miqdarda rüşvət almağa görə həbs olunursa bu qanunsuzluğun icra başçısının iradəsindən, istəyindən və icazəsindən kənarda yaşanması ağlabatan deyil.

***Toğrul Əliyev***

29_27 IYUl-QARA.qxd 8/22/2024 11:07 PM Page 10



# Monopolistlərin daha bir bahalaşma oyunu

## Həftənin sualı: Bir halda ki, xaricdən ucuz qiymətə idxal edilir, bəs onda yerli bazarda ət niyə dayanmadan bahalaşır?

***Cari ilin yanvar-iyun aylarında Azərbaycana xarici ölkələrdən 37 min 139 baş diri qoyun gətirilib.***

Dövlət Statistika Komitəsi xəbər verir ki, bu sayda qoyunların idxalına 2 milyon 959,19 min ABŞ dolları vəsait xərclənib. Bu dövrdə idxal olunan qoyunun bir başının orta gömrük dəyəri 79,7 ABŞ dolları (135,5 manat) olub.

Hesabat dövründə ən çox qoyun Gürcüstandan gətirilib. Belə ki, Gürcüstandan 28 min 959 baş qoyun alınıb. Buna xərclənən vəsait 2 milyon 152,05 min ABŞ dolları olub. Bir baş qoyunun orta gömrük dəyəri 74,3 ABŞ dolları (126,3 manat) olub.



İkinci yerdə Rusiya dayanır. Bu dövrdə Rusiyadan 7 min 680 baş 775 min ABŞ dolları dəyərində diri qoyun idxal edilib. İdxal olunan qoyunun bir başı üçün orta qiyməti 100,9 ABŞ dolları (171,5 manat) təşkil edib.

Bu ilin birinci yarısında Qazaxıstandan Azərbaycana 500 baş qoyun gətirilib. Bu sayda qoyunların alışına 32,13 min ABŞ dolları xərclənib. Qazaxıstandan alınan qoyunun bir başı üçün orta gömrük dəyəri isə 64,3 ABŞ dolları (109,3 manat) olub.

Bəs, bu qədər idxalın müqabilində ət niyə bahalaşır? Üstəlik, ölkəyə yerli bazarda satıldığından xeyli ucuz gətirildiyi halda...

Bu suala Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli aydınlıq gətirib. O, News365.az-a açıqlamasında bildirib ki, Azərbaycan ətə olan ehtiyacını daxili imkanlar hesabına ödəyə bilmir: "Ona görə də xaricdən hazır ət və diri heyvan idxal edilir. Ən çox da Gürcüstandan xırda buynuzlu davarlar gətirilir. Ancaq qonşu ölkədə epidemoloji vəziyyət yaz aylarında qeyri-sabit idi. Ona görə də 2 aya qədər bu ölkədən heyvanların gətirilməsinə qadağa qoyuldu. Məhz bu qadağa Azərbaycan bazarına öz mənfi təsirini göstərdi. Ətin qiyməti xeyli bahalaşdı".

İqtisadçı gömrükdə bəyan edilən qiymətlərə də toxunub: "Göründüyü kimi gömrükdə bir davarın ortalama qiyməti 130 manatdır. Amma həmin heyvanlar bazara çıxana qədər əlavə xərclər yaranır. Elə gömrüyün özündə də əlavə xərclər olur. Bu hesaba da heyvan idxal edən şirkətlər bazara yerli qiymətlərlə çıxırlar. Əgər istəyiriksə ətin qiyməti düşsün, bunun üçün bolluq yaratmalıyıq. Bolluq yaratmaq üçün də fermerlərə dəstək olmalıdır. Yeni örüş sahələri yaradılmalıdır. Təbii örüşlər olmadıqca heyvandarlıq inkişaf etməyəcək".

Bu sadalananlar, şübhəsiz ki, obyektiv səbəblərdir. Lakin ətin bahalaşmasındakı amillər arasında subyektiv səbəbləri nəzərdən qaçırmaq olmaz. Söhbət ilk növbədə ət idxalındakı inhisarçı meyllərdən gedir. Üstəlik, ölkəyə yerli bazarla müqayisədə xeyli ucuz qiymətə gətirildiyi halda ətin qiymətindəki bahalaşmanı monopolist maraqlardan kənarda izah etmək ağlabatan olmazdı.

"Qiymət artımında əsas amillərdən biri inhisarçılıqdır ki, nəticədə bazara süni təzyiqlər artır və mümkün ucuzlaşmanın da qarşısı alınır. Bahalaşma zamanı əhalinin alıcılıq qabiliyyəti getdikcə aşağı düşdüyündən, maya dəyəri baha başa gələn keyfiyyətli məhsulun əvəzinə bazara ucuz və keyfiyyətsiz, hətta saxta məhsullar çıxarılır" - bir müddət əvvəl iqtisadçı Elçin Bayramlı bildirmişdi.

Başqa bir ekspert Vahid Məhərrəmli isə aylar öncə ətin yenidən bahalaşacağına dair proqnozlar səsləndirilərkən daha maraqlı nüanslara toxunmuşdu. Onun fikrincə, Azərbaycanda ətin qiymətinin qalxması üçün heç bir iqtisadi əsas yoxdur. "Ölkəyə ət idxalı artıb, 2022-ci illə müqayisədə diri heyvan idxalı ötən il 74% yüksəlib. Həmin heyvanlar baha olsaydı, onu Azərbaycana gətirərdilər? Yox. Deməli, ətin qiymətinin qalxması monopolistlərə sərf edir. Diri heyvan, ət idxalı işi ilə məşğul olan monopolistlər əlavə pul qazanmaq istəyirlər. Azərbaycanda heyvan kəsimi də monopoliyaya alınıb. Bir çox iri şirkətlər ət və kökəltmə ilə məşğuldurlar. Onlara qiymət artımı sərf edir. Əvvəlcə mətbuatda ətin qiymətinin 20 manat olması ilə bağlı məlumatlar yayır, bu fikiri əhalidə formalaşdırırlar. Sonra da tədricən ətin qiymətini artırırlar" deyən ekspert alıcılıq qabiliyyətinin aşağı düşdüyü, yüksək tələbat olmadığı halda ətin qiyməti ilə bağlı bahalaşma proqnozlarını şübhə altına almışdı: "Bu, süni yaradılmış ajiotajdır, onun nəticəsində isə monopolistlər arzularına çatırlar...".

Göründüyü kimi, ətin qiymətində artım təxminləri və proqnozları inhisarçıların mümkün bahalaşma üçün zəmin yaratmaq cəhdlərindən başqa bir şey deyil. Öncə cəmiyyətdə qiymət artımı olacağına dair hay-küy yaradılır, ictimaiyyət bir növ təlaşlandırılır və insanlar bahalaşmanın qaçılmazlığına inandırılır, ardınca qiymətlərin qaldırılması istiqamətində səylər göstərilir. Bu hoqqabazlıqdan qazananlar bəllidir - monopolistlər. Elə itirənlər də məlumdur - vətəndaşlar...

Bəs aidiyyatı qurumlar hara baxırlar? Məlum olmayan yeganə şey bax bu sualın cavabıdır.

***Toğrul Əliyev***

# 70 ailə Zakir Həsənovdan kömək istəyir



***FHN Nizami rayonunda yerləşən 4 bloklu binadakı liftlərin istismara yararsız olduğunu təsdiqlədi, indi sakinlər yaşadıqları binanın balansında olduğu nazirlikdən yardım gözləyirlər***

Qəzetimizin ötən sayında Nizami rayonu, Əli Vəliyev küçəsi, bina 5 ünvanında yaşayan yüzlərlə vətəndaşın təhlükəsizliyinə təhdid yaradan liftlərlə bağlı məqalə dərc etmişdik. Yazıda bildirilirdi ki, bina Müdafiə Nazirliyinin balansında olduğu üçün sakinlər 31 nəfərin imzası ilə müdafiə naziri Zakir Həsənova, eləcə də lift qurğuları Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyinin qeydiyyatında olan təhlükə potensiallı avadanlıq sayıldığı üçün Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova müraciət ünvanlayıblar.

Lakin şikayətlərə reaksiya verilməyib. Bununla belə, faciə ilə nəticələnə biləcək problemə dair qəzetimizdəki yazının ardından FHN mütəxəssisləri sözügedən binaya baş çəkərək liftlərə baxış keçiriblər. Nəticədə həmin qurğuların istismara yarasız olduğu təsdiqlənib və bununla bağlı akt tərtib edilib.

İndi qalır bu liftlərin yeniləri ilə əvəzlənməsi... Lakin bina, yuxarıda da vurğuladığımız kimi, Müdafiə Nazirliyinin balansındadır. Elə ona görə də sakinlərin Bakı Şəhər İcra Hakimiyyətinin "Lifttəmir" İstehsalat Birliyinə müraciətləri nəticəsiz qalıb. Oradan bildirilib ki, bina Müdafiə Nazirliyinin balansında olduğu üçün problemə müdaxilə etmək səlahiyyətləri yoxdur.

Elə bu səbəbdən indi 70 ailənin bütün nəzərləri Müdafiə Nazirliyinə çevrilib. Onlar nazir Zakir Həsənovdan üzləşdikləri problemin həlli üçün kömək gözləyirlər.

Sakinlər ya binanın Müdafiə Nazirliyinin balansından çıxarılmasını və nəticədə aidiyyatı quruma - "Lifttəmir" İstehsalat Birliyinə liftlərin yenilənməsi üçün imkan yaranmasını xahiş edir, ya da elə nazirliyin yüzlərlə insanın həyatını təhlükə qarşısında qoyan problemin həlli istiqamətində addımlar atmasına ümid bəsləyirlər. "İnanırıq ki, cənab Zakir Həsənov səsimizi eşidəcək və öz köməkliyini əsirgəməyəcək" deyə sakinlər bildirirlər.

Onu da vurğulayaq ki, haqqında danışılan 4 bloklu binanın liftləri 50-60 il öncə quraşdırılıb və hazırda istismar müddətlərini faktiki olaraq başa vurublar, tam qəzalı durumdadırlar.

Sözügedən binada məskunlaşanlar artıq problemlə bağlı Prezidentə də müraciət ünvanlayıblar. Sakinlər inanırlar ki, həmin müraciətdən sonra aidiyyatı qurumlar nəhayət ki, hərəkətə keçəcək və onları gözləyən faciəni önləmək üçün vaxtında lazımi tədbirlər görəcəklər.

Xatırladaq ki, son vaxtlar Bakıda bir sıra lift qəzaları yaşanıb. Məsələn, ötən ilin iyununda Sabunçu rayonu, Bakıxanov qəsəbəsində "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-yə məxsus "Uğur-2" yaşayış kompleksində liftin qırılması nəticəsində 6 qadın və 2 uşaq müxtəlif növ bədən xəsarətləri alıblar. "Binadakı liftlər 14 ildir ki, qəzalı vəziyyətdədir. Təmir etmirlər. Hər dəfə qorxa-qorxa liftə minirik", - hadisənin ardınca bina sakini qeyd etmişdi. Bu ilin yanvarında isə Xətai rayonu, Gəncə prospekti 2980/81 ünvanında liftdə baş verən qəza səbəbilə Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə çağırış daxil olub. Dərhal hadisə yerinə 3 təcili yardım briqadası cəlb olunub. Hadisə nəticəsində 4 nəfərin xəsarət aldığı açıqlanıb. İyun ayında isə Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 79 ünvanında liftin qırılması nəticəsində 5 nəfər xəsarət almışdı.

Oxşar hadisənin Nizami rayonu, Əli Vəliyev küçəsi, bina 5 ünvanında təkrarlanmaması üçün orada yaşayan sakinlərin çağırışına vaxtında reaksiya verilməsi yaxşı olardı.

29_27 IYUl-QARA.qxd 8/22/2024 11:07 PM Page 11



## "Rufo Gəncinski"nin adından pul tələb edənin məhkəməsi keçirildi



***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə Cinayət Məcəlləsinin 182.2.2-ci (hədə-qorxu ilə tələb etmə təkrar törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs Abbaszadə Mehdi Əli Hüseyn oğlunun məhkəmə prosesinin növbəti iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, cinayət işində 5 nəfər zərərçəkmiş qismində tanınıb. Şahid Vüqar Quliyev ifadə verərək bildirib ki, Mehdi onun işlədiyi köşkün müdirindən pul tələb edib və deyib ki, biz Rufo Gəncinskinin yaxın adamlarıyıq: "Mənim telefonumla müdirim Cahad danışdı, ona dedi ki, gəlməlisən bura. Ancaq müdirim gəlmədi, Mehdi tək deyildi, qıraqda başqa uşaqlarda durmuşdu. Onlar köşkün içinə girmək istəyirdilər. Mən özüm qapını açdım. Həmin vaxt kassada 1000 manatdan çox pul var idi, ancaq hamısı bir yerdə deyildi. Kassa açıq idi, onlar pulun 600 manatını götürdülər. Dedi ki, verməsən kiosku dağıdacayıq. Mən heç nə deyə bilmədim, qorxdum".

Sonra hakim zərərçəkənin ibtidai istintaqda ifadəsini elan etdi. Məlum oldu ki, Mehdi Vüqara özünü Ramin kimi təqdim edib və qanuni oğru Rufo Gəncinskinin yaxını olduğunu bildirib.

Məhkəmənin növbəti gedişində köşkün sahibi, cinayət işində zərərçəkmiş qismində tanınan Cahad Hacıyev ifadə verdi: "Mənə işçim Vüqar yığdı. Dedi ki, Ramin adlı oğlan gəlib, səninlə görüşmək istəyir. Daha sonra özü telefonu götürdü, dedi ki, gəlməlisən bura, sən kimə güvənib belə danışırsan. Mən Ramanada olduğuma görə gəlib çata bilmədim. Bir az keçmiş Vüqar zəng edib dedi ki, 600 manat pulu götürüb apardılar".

Məhkəmə prosesi avqust ayının 29-na kimi təxirə salınıb.

Qeyd edək ki, Mehdi Abbaszadə əsasən yeraltı keçidlərdə yerləşən köşklərə yaxınlaşaraq qanuni oğru "Rufo Gəncinski"nin yaxın adamı olduğunu bildirib və hədə-qorxu ilə pul tələb edib.

***Seymur Əli***

## Oynaq hərəkətliliyi zəif olan insanlar daha tez ölür



***Oynaq hərəkətliliyi zəif olan insanlarda ölüm riski artır və kişilər xüsusilə həssasdırlar.***

"Unikal" xəbər verir ki, bunu "Scandinavian Journal of Medicine & Science in Sports" jurnalında dərc olunan araşdırma göstərib.

Alimlər 46-65 yaşlı üç min insanın məlumatlarını təhlil ediblər. Onların elastikliyi yeddi oynaqda hərəkət diapazonunu nəzərə alan Flexindex şkalası ilə qiymətləndirilib. Qadınlarda orta bal 35% yüksək olub.

Orta hesabla 13 illik müşahidə dövründə 224 kişi və 78 qadında 302 ölüm qeydə alınıb.

Alimlər hesab edirlər ki, insanlar elastiklik məşqlərinə daha çox vaxt sərf etməli və müntəzəm olaraq elastiklik qiymətləndirmələrindən keçməlidirlər.

"Aerobik fitness, güc və tarazlıq əvvəllər aşağı ölüm riski ilə əlaqələndirilirdi. Biz göstərə bildik ki, bədən hərəkətliliyinin azalması da orta yaşlı kişilərdə və qadınlarda sağ qalma qabiliyyətinin aşağı olması ilə bağlıdır", - müəlliflər qeyd ediblər.

***Gülayə Mecid***

**ELAN**

FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən İbrahimov Xəlfə Ruslan oğluna verilmiş AA 05943, Nəsirov Rəşad Barat oğluna verilmiş AA 06636 nömrəli gəmi biletləri itdiyi üçün etibarsız sayılır.

# Lütvəli Babayev deputat olmaq istəyirmiş

## Sabiqlərin izi ilə: keçmiş icra başçısı niyə "yox" cavabı aldı?



***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Zərdab rayon İcra Hakimiyyətinin keçmiş icra başçıs Lütvəli Babayev haqqındadır.***

Hazırda 65 yaşı olan L.Babayev 2007-2019-cu illərdə Zərdaba rəhbərlik edib. Daha əvvəl isə (2005-2007-ci illərdə) o, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı postunu tutmuşdu.

Əslində sabiq başçının "vurulması" gözlənilməz olmuşdu - o, Zərdab rayonunun icra başçısı postundan 2019-cu ildə, 60 yaşının tamam olduğu ərəfədə azad edilmişdi. Bu səbəblə də onun işdən çıxarılmasında yaş amilinin rol oynaması istisna idi. Axı Lütvəli müəllim hələ heç pensiya yaşına da çatmamışdı. Ona görə də həmin vaxt yerli KİV belə ehtimal edirdi ki, Lütvəli müəllim korrupsiya da başda olmaqla bir çox neqativ əməllərinə, qeyri-qənaətbəxş fəaliyyətinə görə vəzifəsindən azad olunub. Bundan başqa, onun Zərdaba rəhbərlik etdiyi dövrdə bu rayon ölkənin iqtisadi baxımdan ən geridə qalmış rayonları arasında göstərilirdi, yerli sakinlərin də dediyi kimi, baxımsızlıq, təsərrüfatsızlıq baş alıb gedirdi. Zərdablıların çətin sosial-iqtisadi vəziyyətdə yaşadığı, işsizlikdən əziyyət çəkdiyi bir vaxtda isə sabiq başçının ailə biznesinin günbəgün çiçəklənməsi maraq doğururdu.

Onu da deyək ki, L.Babayevin maraqlı karyerası var: Mingəçevirdə məktəb direktoru olarkən bu vəzifədən həmin şəhərin icra hakimiyyətində yüksək vəzifəyə (ümumi şöbənin müdiri) gətirilmiş, 1997-ci ilə qədər həmin vəzifədə işləmiş, ardınca nəyə görəsə elə həmin il yenidən müəllimlik peşəsinə qayıdaraq o vaxtlar mövcud olan San-Marino Universiteti adlı qalmaqallı ali məktəbin Mingəçevir filialında müəllim işləməyə başlamışdı. İki il sonra isə Lütvəli müəllim yenidən şəhər İcra Hakimiyyətinə qayıtmış, bu dəfə Şəhər İcra Hakimiyyəti Başçısı Aparatında ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri olmuşdu.

2005-ci ilə qədər həmin vəzifədə işlədikdən sonra isə Mingəçevirin icra başçısı təyin olunan L.Babayev bu vəzifədə iki il işlədikdən sonra, 2007-ci ildə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı postuna təyinat almışdı. Beləliklə, onun nəinki sadə zərdablılarla, hətta rayonun vəzifəli şəxsləri və iş adamları ilə çox sayda qalmaqallarla müşahidə edilən, Zərdaba ümumi rəhbərlik baxımından isə uğursuzluqlarla dolu dövrü start götürmüşdü. Həmin dövr 5 il öncəyədək davam etmiş, sonda isə L.Babayev özünə, yaxınlarına geniş biznes şəbəkəsi qurmuş, zərdablılara isə saysız-hesabsız sosial-iqtisadi problemlər miras buraxmışdı...

"Unikal"ın əldə etdiyi məlumata görə, hazırda Babayev Bakıda yaşayır və artıq yaşla əlaqədar təqaüdə çıxıb. Bununla belə, keçmiş icra başçısı son vaxtlar siyasi karyerasını bərpa etməyin yollarını axtarıb. Hətta o, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri ərəfəsində doğulduğu və 12 il rəhbərlik etdiyi rayonundan deputatlığa namizədliyini irəli sürmək fikrinə də düşüb. Yeni Azərbaycan Partiyasının (YAP) üzvü olan Babayevin bu istiqamətdə nəbz yoxlamağa çalışdığı da iddia edilir. Belə ki, o, hakim partiyanın deputatlığa namizədlər siyahısına düşmək üçün bəzi cəhdlər edib, lakin müsbət cavab almayıb. İstisna deyil ki, bunda onun Zərdaba rəhbərlik etdiyi dövrdə yaxşı izlər buraxmaması, yerli əhalinin rəğbətini qazanmaması, tam əksinə, zərdablıların Lütfəli müəllimdən ciddi narazılığı həlledici rol oynayıb.

Onu da deyək ki, Babayev vəzifədən uzaqlaşdırıldıqdan bir müddət sonra onun Azərbaycandakı tikinti şirkətlərinin fəaliyyətini dayandırdığına dair xəbərlər yayılmışdı. "Unikal" olaraq hələ bir il öncə yazmışdıq ki, sabiq başçının paytaxt Bakıda tikinti sahəsində çalışan iki şirkəti mövcud olub. Lakin Babayev icra başçısı postunu itirdikdən bir müddət sonra həmin şirkətlərin fəaliyyəti zəifləyib. İddiaya görə, həmin şirkətlərdən biri Binəqədi rayonunun 7-ci mikrorayon, Abay Kunanbayev küçəsində, 3123-cü məhəllədə 12 mərtəbəli bina tikib. Tikintini həyata keçirən şirkətə isə keçmiş icra başçısının oğlu Babəli Babazadə nəzarət edib. O, atası Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışarkən "BLB" Məhdud Məsuliyyətli Cəmiyyətini (MMC) yaratmışdı. Bu MMC-nin adının açması "Babəli Lütvəli Babazadə" demək idi.

Sabiq icra başçısının ailəsinə məxsus daha bir şirkət isə "Top Point" (MMC) olub. Şirkət Lütvəli müəllimin ailə üzvlərindən biri Rübabə Babayevaya məxsus idi. Hər iki MMC akademik Mirəli Qaşqay küçəsi ev 63A, mənzil 26 ünvanında hüquqi qeydiyyatdan keçirilmişdi.

Lütvəli Babayevin "vurulmasının" ardından oğlu Babəli Babazadə Azərbaycandakı biznesini Rusiyaya köçürdüyü də deyilirdi. İddialara görə, o, Moskvada "Liqa-Stroy" Məhdud Məsuliyyətli Cəmiyyətini (OOO LİQA-STROY) yaradıb. Qanuni təmsilçisi Rusiya vətəndaşı Kirill Ayvenqoviç adlı şəxs olan şirkətin nizamnamə kapitalı 100 min rubl idi. "Liqa-Stroy" Rusiya paytaxtında binaların inşası üçün lisenziya almışdı.

Bu isə belə fikirlərin yayılmasına gətirib çıxarmışdı ki, L.Babayev Azərbaycanın tikinti bazarından çəkilməyə qərar verib və bu sektordakı biznesini ölkə xaricinə daşımağı üstün tutub.

***Sənan Mirzə***

29_27 IYUl-QARA.qxd 8/22/2024 11:07 PM Page 12



**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Parlament seçkilərində seçici fəallığı mühüm amillərdəndir

## Zaur İbrahimli: "Əgər bir ölkədə seçici fəallığının səviyyəsi yüksəkdirsə, deməli vətəndaşların siyasi institutlara, mövcud siyasi təcrübəyə etibarını göstərir"



***Parlamentə növbəti seçkilərin keçirilməsinə sayılı günlər qalır. Seçkilərin vətəndaşların siyasi mədəniyyət səviyyəsinin, siyasi fəallığının artırılmasında rolu böyükdür.***

Sentyabrın 1-də isə ölkəmizdə parlament seçkiləri keçiriləcək. Hazırda seçkilərə hazırlıq prosesi keçirilir. Seçkilərdə iştirak etməklə xalq onu təmsil etmək hüququnu seçdiyi şəxslərə verir. Azərbaycan Respublikasında vətəndaşların seçkilərdə iştirakı azad və könüllülük prinsipinə əsaslanır. Hazırda bütün ölkə üzrə 125 seçki dairəsində namizədlər fəal təbliğat-təşviqat kampaniyası aparırlar. Onlar əvvəlcədən müəyyən edilmiş açıq və qapalı məkanlarda görüşlər keçirir, seçicilərə öz platformalarını təqdim edir, seçiləcəkləri təqdirdə görəcəkləri işlərdən, problemlərdən və onların həlli yollarından bəhs edirlər. Ümumiyyətlə, seçkilər hər bir xalqın həyatında mühüm rola malik siyasi kampaniyadır. Seçicilər seçkilərə biganə qalmamaqla, səsvermədə mütəşəkkil iştirak etməklə, əslində, öz gələcəkləri ilə bağlı məsələlərə biganə olmadıqlarını büruzə verirlər. Son məlumatlara görə, dairə seçki komissiyası və onun hüdudları daxilində yerləşən məntəqə seçki komissiyaları səsvermə gününə, demək olar ki, tam hazırdır. Bütün dairələr və məntəqələr səsverməyə çağırış vərəqələri ilə təmin olunub. Səsvermənin keçirilmə tarixi, vaxtı və yeri, habelə seçki məntəqəsinin ünvanı barədə bildirişlərin demək olar ki, 80 faizi seçicilərə paylanılıb. DSK üzrə seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün lazımi tədbirlər görülür. Hətta beynəlxalq müşahidəçilər seçki dairəsində görüş keçiriblər. Məntəqələrdə seçki prosesi Seçki Məcəlləsinin və digər qanunların tələblərinə uyğun təşkil olunub. Seçki qutuları yerindədir. Səsvermə kabinələri tam hazır vəziyyətə gətirilib və sxemə uyğun qurulub.

Seçkinin şəffaf keçirilməsinin daha bir göstəricisi məntəqələrdə vebkameraların quraşdırılmasıdır. Mərkəzi Seçki Komissiyasının keçirilən iclasında MSK sədrinin müavini Rövzət Qasımov deyib ki, Milli Məclisə seçkilərlə əlaqədar 1000 məntəqədə veb-kamera quraşdırılıb. Vebkameralar vasitəsilə seçki məntəqələrində səsvermə günü proseslər hamı üçün açıq platformada canlı nümayiş etdiriləcək, maraqlı subyektlər seçki məntəqələrinə getmədən belə gün ərzində prosesləri əvvəldən axıradək fasiləsiz müşahidə imkanı qazanacaqlar. "Exit-poll" aparacaq təşkilatlar da MSK-da qeydiyyatdan keçməlidirlər. Rövzət Qasımov onu da bildirib ki, çox sayda yerli və beynəlxalq müşahidəçilər, media mənsubları və fərqli aşkarlıq institutları seçki kampaniyasında hər hansı bir maneə ilə rastlaşmadan, azad və sərbəst şəkildə iştirak edirlər: "Ölkədə fəaliyyət göstərən siyasi partiyalar və vətəndaş cəmiyyəti institutları müşahidə baxımından xüsusilə geniş iştirak sərgiləyirlər".

İndiyə qədər növbədənkənar parlament seçkiləri ilə əlaqədar MSK-da qeydə alınan yerli müşahidəçilərin sayı açıqlanıb. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MSK-nın iclasında bildirib ki, indiyə qədər ümumilikdə 7100-ə qədər yerli müşahidəçi MSK-da qeydə alınıb.

"Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyası və "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İB-nin sədri Zaur İbrahimli "Unikal"a deyib ki, seçici fəallığı seçki prosesini xarakterizə edən ən mühüm göstəricilərdəndir. Onun sözlərinə görə, bu göstərici seçicilərin ümumilikdə seçki prosesinə və seçki institutuna etimadını, eləcə də etibarını əks etdirir. Həmçinin vətəndaş iştirakçılığının miqyasını göstərir.

" Çünki, seçicilər gələcəyə baxışa, təqdim olunan inkişaf strategiyalarına səs verirlər. Bu vətəndaşların qərarların idarəedilməsində, ölkənin milli inkişaf məqsədlərinin müəyyənləşməsində iştirak səviyyəsini göstərir. Seçkili vəzifələrə nə dərəcədə etibarı da seçici fəallığı ifadə edir. Əgər bir ölkədə seçici fəallığının səviyyəsi yüksəkdirsə, deməli vətəndaşların siyasi institutlara, mövcud siyasi təcrübəyə etibarını göstərir. Buna görə də, seçici fəallığına əsasən bir çox nəticələr çıxartmaq mümkündür".

Həmsöhbətimiz deyir ki, Azərbaycanda seçicilərin məlumatlandırılması istiqamətində mühüm işlər aparılır. Bu isə seçici fəallığına təsir edən amillərdəndir. O, qeyd edib ki,ölkəmizdə seçki ərəfəsi plüarist mühit formalaşıb: " İnternet, onlayn media seçki dövründə əqli fikirlərin daha geniş auditoriyaya çatdırılmasını reallaşdırır. Ölkədə fərqli fikirləri turajlayan mətbu orqanlar, şəxslər heç bir siyasi təyziqə məruz qalmırlar. Hazırda namizədlər aktiv formada öz platformaları ilə seçiciləri tanış edirlər. Bu da seçici fəallığına təsir edən mühüm amillərdəndir".

Zaur İbrahimli deyir ki, prezident seçkilərində 82,9 faiz səviyyəsində seçici fəallığı qeydə alınıb.

" Güman edirik ki, bu dəfəki parlament seçkilərində də seçici fəallığı yüksək olacaq. Vətəndaş cəmiyyəti də bu seçkilərdə fəal iştirak edir. Ölkəmizdəki sabitlik də seçkilərin yüksək səviyyədə keçəcəyindən xəbər verir",-deyə o, bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Həftəsonu 1415 taksi sürücüsü imtahan verəcək

***Dövlət İmtahan Mərkəzi 1 iyul 2024-cü il tarixindən sonra xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün avqustun 25-də imtahan keçirəcək.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki, imtahanda iştirak etmək üçün 1415 nəfər qeydiyyatdan keçib.

Kompüter vasitəsilə elektron qaydada təşkil olunan imtahan DİM-in Binəqədi rayonu, S.S.Axundov küç., 108 ünvanında yerləşən elektron imtahanlar korpusunda saat 10:00 və 13:00 olmaqla, 2 növbədə keçiriləcək və 1 saat davam edəcək. İmtahan iştirakçıları imtahanı yekunlaşdırdıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda nəticələrlə tanış olmaq imkanına malik olacaqlar. Nəticələr həmçinin növbəti gün DİM-in saytına yerləşdiriləcək.

Namizədlər "İmtahana buraxılış vərəqəsi"ni "Elektron imtahanlara buraxılış vərəqələri və nəticələrin çapı" xidməti vasitəsi ilə çap edə bilərlər. İştirakçılar "İmtahana buraxılış vərəqəsi"ndə göstərilən vaxtda imtahan binasının qarşısında olmalıdırlar.

İmtahana gələrkən namizədlər "İmtahana buraxılış vərəqəsi" və şəxsiyyət vəsiqəsini mütləq təqdim etməlidirlər. Göstərilən sənədlərdən biri olmadıqda və ya onlar arasında uyğunsuzluq olduqda namizəd imtahana buraxılmayacaq.

İmtahan zamanı namizədlərə sürücülərin etik davranışı və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilmiş xüsusi hazırlığın proqramını əhatə edən 20 test tapşırığı təqdim ediləcək. Hər tapşırığın düzgün cavabı 1 balla qiymətləndirilir. Səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir. 10 və daha çox bal toplamış şəxslər imtahanı müvəffəqiyyətlə vermiş sayılırlar və onlara 7 (yeddi) il müddətində etibarlı olan şəhadətnamə təqdim ediləcəkdir.

# Bərdədə genişzolaqlı internetə çıxış təmin edilib

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Onlayn Azərbaycan" layihəsi çərçivəsində Bərdə rayonunda mövcud ev təsərrüfatı və biznes subyektlərinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradılıb.***

"Unikal" xəbər verir ki Bərdə şəhərində şəbəkənin tikintisi başa çatmaq üzrədir. Şəhər mərkəzində 12644 təsərrüfatdan 7000-ə yaxın ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır.

Rayonun Türkmən, Zümürxan, Qaradağlı, Divanlı, Mirzalıbəyli, Qaraməmmədli, Hacıbəyli, Qafarlı, Güloğlular, Şorəlli, Cəyirli, Gərənə, Əlyanlı, Muğanlı, Qasımbəyli, Körpüsındıran, Cumalar, Şatırlı, Kürdborakı, Birinci Qazaxlar, İkinci Nazırlı, Çəmənli, İmamqulubəyli, Yeni Daşkənd, Umudalılar, Tağılar, Mehdixanlı, İkinci Hacallı, Seyid Yusifli, Cicimli, Qayalı, Qəhrəmanlı, Mirasəfli, Həsənqaya, Saatlı, Qarağacı, Mirzəcəfərli, Mollagüllər, Samuxlu, Şirvanlı, Uğurbəyli, Dəymədağıldı, Bala Qaçar, Qullar, Böyük Qacar, Qurdlar, Kətəlparaq, Kələntərli, Dərğalar, Əyricə, Yeni Əyricə, Nəcəfqulubəyli, Kərimbəyli, Nifçi, Otuzikilər, Mollaisalar, Mollaməmmədli, Bayramlı, Çələbilər, Alpoud, Qaradırnaq, Qarayusifli, Tumaslı, Böyük Göyüşlü, Bala Göyüşlü, Hacılar, Hüseynalılar, Yerli Ağalı, Arabaçılar, Mustafaağalı, Mollalı, Çərəlilər, Əmirli, Piyadalar, Şahvəlilər, Xanərəb, Şərəfli, Bəcirəvan, Xəsili, Qazaxlar, Hacallı və Lənbəran kəndində 32405 təsərrüfat üçün şəbəkənin tikintisi başa çatdırılıb.

Ümumilikdə rayonda mövcud təsərrüfatların 90%-dən çoxunun genişzolaqlı internetə çıxışı təmin edilib. Hazırda rayon ərazisində 19649 təsərrüfat GPON xidmətlərindən yararlanır və yeni qoşulmalar davam etdirilir.

Müasir texnologiyaların tətbiqi istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həyata keçirdiyi "Onlayn Azərbaycan" layihəsi çərçivəsində ölkənin digər bölgələrində də yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə davam etdirilir.

Qeyd edək ki, ümumilikdə 2,8 milyon təsərrüfat genişzolaqlı internetlə əhatə olunub. Bu, ölkədə mövcud ev təsərrüfatı və biznes subyektlərinin 95,5%-ni təşkil edir.

29_27 IYUl-QARA.qxd 8/22/2024 11:07 PM Page 13



# Azərbaycanda problemli kreditlər azalıb



***Bu il avqust ayının 1-nə Azərbaycanda problemli kreditlərin həcmi əvvəlki aya nisbətən 2 milyon manat artaraq 453.7 milyon manata yüksəlib.***

"Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, vaxtı ötmüş kreditlər bu ilin əvvəlinə nisbətən 3.6% artıb, ötən ilin eyni dövrü ilə müqayisədə isə 8.3% azalıb.

# Gəzintinin 11 faydası



***Gəzinti bədən üçün olduqca faydalıdır. Araşdırmalara görə, hətta 11 dəqiqəlik gəzinti vaxtından əvvəl ölümdən və bir sıra xroniki xəstəliklərdən qoruya bilər.***

"Unikal" gəzintinin faydalarını təqdim edir:

**Yaradıcılığı artırır**

Gəzinti yaradıcı təfəkkürün inkişaf etdirir.Problemlərin həlli yollarını tapmağa kömək edir.Zehinliliyi və aydın düşüncənin formalaşmasına yardımçı olur.Tədqiqatlar, rəqs və ya velosiped sürmə kimi hər hansı bir hərəkət növünün yaradıcılığı artırmaq üçün faydalarının olduğunu sübut etmişdir.

**Kalorini yandırır**

11 dəqiqə gəzinti etmək arıqlamağa kömək edir. O, kalorini asanlıqla yandırmağa yardımçı olur.

**Ürək sağlamlığını yaxşılaşdırır**

Düzgün bir fitness rejimi qura bilmirsinizsə, gündə 11 dəqiqə gəzmək belə faydalı ola bilər. Araşdırmalara görə, gündə 10 dəqiqə sürətli gəzintinin sağlamlıq üçün bir çox faydası var. Gəzinti qan dövranını artırmağa kömək edir, bu da orqanlara və ürəyə daha çox oksigen və qida çatmasını təmin edir. Ürək xəstəlikləri riskini azaldır.

**Stressi idarə edir**

Gəzinti sinir sistemini sakitləşdirir və əhval-ruhiyyəni artıran endorfinləri ifraz edir ki, bu da stressi aradan qaldırmağa və stressdən yayınmağa kömək edir

**Əhval-ruhiyyəni yaxşılaşdırır**

Gəzinti əhval-ruhiyyəni yaxşılaşdırır, nəfəs almanı tənzimləyir, stresli vəziyyətlərdən yayındırır və təbiətlə ünsiyyətdə olmağa kömək edir.

**Oynaq ağrılarını azaldır**

Gəzinti artritin idarə edilməsində faydalı ola bilər, çünki o, əzələləri gücləndirir, oynaqlara təzyiqi və ağrıları azaltmağa kömək edir. Gündəlik 11 dəqiqəlik gəzinti dizlərinizdəki qığırdaqları sıxaraq sərbəst buraxır. Bu da oksigeni təmin edən və oynaqlarınızı qidalandıran sinovial mayenin dövriyyəsinə kömək edir.

**Yağ yandırır**

Gündəlik gəzinti yağları yandırmağa kömək edir.

**Şəkərli diabet riskini azaldır**

Gəzinti 2-ci tip diabet riskini azaltmağa kömək edə bilər. Araşdırmalara görə, saatda 4 km və ya daha çox sürətlə piyada getmək 2-ci tip diabet riskini əhəmiyyətli dərəcədə azaldır.

**Yuxunu tənzimləyir**

Gəzinti yuxu keyfiyyətini, depressiv simptomları, yuxu səmərəliliyini yaxşılaşdırır, yuxu keyfiyyətini artırır.

**Beyin sağlamlığını yaxşılaşdırır**

Gəzinti yeni beyin hüceyrələri əmələ gətirir, çünki gəzmək beyindən alınan neyrotrofik amil və ya BDNF adlı proteinin ifrazını stimullaşdırır.

**Həzm sağlamlığını tənzimləyir**

Yeməkdən sonra 11 dəqiqə gəzinti qan şəkərinin səviyyəsini tənzimləyə və həzmi yaxşılaşdıra bilər. O, həmçinin turşuluğu və şişkinliyi aradan qaldırmağa kömək edir.

***Zərifə Nağıyeva***

# Mərkəzi Bankın valyuta məzənnələri açıqlandı




***Azərbaycan Mərkəzi Bankının bu günə olan rəsmi valyuta məzənnələrinə əsasən, ABŞ dollarının məzənnəsi dəyişməyərək 1,7000 manat olub.***

"Unikal" xəbər verir ki, avronun məzənnəsi 0,22 % artaraq 1,8944 manat, Rusiya rublunun məzənnəsi isə 0,53 % azalaraq 0,0186 manat təşkil edib.

# 2024-cü ilin 6 ayında Ağdaşda istehsal və xidmət sahələri üzrə əsas göstəricilər

***2024-cü ilin yanvar-iyun aylarında Ağdaş rayonunda məhsul və xidmətlərin 77,8 faizi istehsal sahələrinin, 22,2 faizi isə xidmət sahələrinin payına düşmüşdür.***

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 121 milyon 357,0 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da, 63 milyon 676,9 min manatı bitkiçiliyin, 57 milyon 680,1 min manatı isə heyvandarlığın payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı qiymət indeksi nəzərə alınmaqla 1,9 faiz azalmış, faktiki qiymətlərlə isə eyni olmuşdur.

Rayonun 14 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 49 milyon 859,5 min manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 1,1 faiz, qiymət indeksi nəzərə alınmaqla isə 1,4 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 89,6 faizi emal, 9,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 4 milyon 934,7 min manatı və ya 9,9 faizi dövlət, 44 milyon 924,8 min manatı və ya 90,1 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 44 milyon 670,8 min manatı və ya 89,6 faizi hüquqi şəxslərin, 4 milyon 793,0 min manatı və ya 9,6 faizi ev təsərrüfatlarının, 395,7 min manatı və ya 0,8 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2024-cü ilin yanvar-iyun aylarında rayonda 21 milyon 558,2 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 88,6 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 73,1 faiz azalmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 19 milyon 601,0 min manatı və ya 90,9 faizi dövlət, 1 milyon 957,2 min manatı və ya 9,1 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 55 milyon 16,0 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 0,8 faiz və ya 468,8 min manat, qiymət indeksi nəzərə alınmaqla isə 0,9 faiz və ya 489,5 min manat azdır. İstehsal olunmuş xidmətlərin 51 milyon 148,1 min manatı və ya 93,0 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 3 milyon 581,4 min manatı və ya 6,5 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 286,5 min manatı və ya 0,5 faizi informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 159 milyon 837,9 min manatlıq istehlak malları satılmış və 2023-cü ilin eyni dövrü ilə müqayisədə rayonda 1,6 faiz və ya 2 milyon 599,6 min manat az istehlak malları realizə olunmuşdur.

**Əsas kapitala yönəldilmiş investisiyalar...**

2024-cü ilin yanvar-iyun aylarında Ağdaş rayonunda əsas kapitala yönəldilmiş investisiyalar artıb. 2024-cü ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 26 milyon 587,3 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,7 dəfə çox vəsait yönəldilmişdir. Ümumi vəsaitin 23 milyon 5,5 min manatı və ya 86,5 faizi dövlət, 3 milyon 581,8 min manatı və ya 13,5 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. Əsas kapitala yönəldilmiş vəsaitlərin 21 milyon 558,2 min manatı və ya 81,1 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 5 milyon 29,1 min manatı və ya 18,9 faizi isə maşın və avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 19 milyon 601,0 min manatı və ya 90,9 faizi dövlət, 1 milyon 957,2 min manatı və ya 9,1 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür. 2024-cü ilin yanvar-iyun aylarında tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,9 dəfə çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 88,6 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 73,1 faiz azalmışdır.




***Arif Qurbanov***
***Ağdaş Rayon Statistika İdarəsinin rəisi***

# Dövlət qurumlarının "Rəqəmsal Sənəd Dövriyyəsi" altsisteminə qoşulması üçün yoxlamalar davam edir

***Otən ilin avqust ayında imzalanan "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Fərmanın icrası ilə əlaqədar bu günə qədər 73 dövlət qurumundan onların elektron sənəd dövriyyəsi sistemlərinin altsistemə inteqrasiyası üçün Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi üzrə rəy verilməsi barədə müraciətlər daxil olmuşdur.***

"Unikal" xəbər verir ki, daxil olmuş müraciətlər əsasında Xidmət tərəfindən aparılan informasiya təhlükəsizliyi auditləri zamanı dövlət qurumlarının istifadəsində olan daxili elektron sənəd dövriyyəsi sistemlərində aşkarlanan informasiya təhlükəsizliyi boşluqları və onların aradan qaldırılması istiqamətində tövsiyələr həmin dövlət qurumlarına göndərilmişdir. Hazırda informasiya təhlükəsizliyi üzrə müsbət rəy almış 63 dövlət qurumunun daxili elektron sənəd dövriyyəsi sistemi mühafizə olunan telekommunikasiya kanalları - AzStateNet data şəbəkəsi vasitəsilə "Rəqəmsal Sənəd Dövriyyəsi" altsisteminə qoşulmuşdur.




Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 01 avqust 2023-cü il tarixli 2279 nömrəli "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Fərmanının 8-ci bəndlərinə əsasən dövlət orqanlarının istifadəsində olan elektron sənəd dövriyyəsi sistemlərinin və həmçinin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən yaradılan "Rəqəmsal Sənəd Dövriyyəsi" altsisteminin informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi ilə bağlı rəyin verilməsi və mühafizə olunan telekommunikasiya kanalları ilə təmin edilməsi Xidmətə tapşırılmışdır.

# Hünər dastanlı Vətən sevdalısı

***Cəlilabad rayonu, Göytəpə şəhərində dünyaya göz açan Azərbaycan Silahlı Qüvvələrinin baş çavuşu Murad Nəbi oğlu Səlifov 44 günlük haqq savaşında ömrünü Vətəninin yaşaması naminə verməklə özü əbədiyyət ulduzuna dönüb. Bu müqəddəs yolu Murad hələ orta məktəbdə oxuduğu zaman həyatına daxil edib. Odur ki, Vətəninə, torpağına halal sevgisi, saf mənəvi dünyası onu həmişə yaşıdlarından fərqləndirib.***

Qarı düşmənin Qarabağda törətdiyi qanlı hadisələr Muradı çox narahat edib. Odur ki, Vətənə olan oğulluq borcunu yerinə yetirəcəyi günün çatmasını səbirsizliklə gözləyib. Orta məktəbi başa vurub doğma Azərbaycana sipər, düşmənə çəpər olmaq amali ilə ordu sıralarına yollanıb.

Murad əlinə silah alıb, cəbhə bölgəsində əsgərlik həyatına başlayıb. Bütün çətinliklərə dözərək gecə-gündüz keşik çəkib, yeri gələndə düşmənə göz açmağa macal verməyib. Dəfələrlə dığaların təxribatının qarşısını alıb, onların arzusunu ürəyində qoyan cəsur əsgər hərbi hissədə vətənpərvərliyini, qeyri-adi bacarıq və qabiliyyətini, Vətənə, yoldaşlarına sədaqətini, doğma torpaq uğrunda ölməyə hər an hazır olduğunu aydın şəkildə göstərməyi bacarıb.

İstəyi Qarabağ torpaqların tezliklə mənfur düşmən tapdağından azad görmək olan Murad həqiqi xidmətdən sonra özünü həmişəlik hərbiyə bağlayıb. Çavuş rütbəsində səngərlərdə düşmənlə üz-üzə durmaqdan çəkinmir. Qanında cəngavərlik, mərdlik ruhu olan Murad təlimlər də fərqlənib, komandirlərin, əsgərlərin hörmətini qazanıb. Hər gördüyü işdə Vətənə, torpağa olan sonsuz bağlılığı ona mənəvi güc və qüvvə verib. Məqamı gələndə düşməni döyüşdə son nəfərədək məhv edəcəyinə tam inanıb.

2020-ci ilin sentyabrın 27-də başlanan, 44 gün çəkən haqq savaşımızda baş çavuş Murad Səlifov səngərə - erməni dığalarla döyüşə atılıb. İştirak etdiyi neçə-neçə ağır müharibə meydanında rəşadət nümunəsi göstərərək düşmənə ağır itkilər verib.

Yağı düşmənə qarşı sentyabrın 30-da Füzuli, Cəbrayıl istiqamətində ölüm-dirim savaşı başlanıb. Murad "Vətən sağ olsun" deyib qorxmadan düşmənin üstünə şığıyıb. Bir anın içində yağının kabusuna çevrilən qəhrəman Vətən oğlu qəfil atılan gülləyə tuş gəlib, əbədi olaraq gözlərini yumub. Şəhadət zirvəsinə ucalmaq səadəti alına yazılan şəhidin Cəlilabada dönüşü el-obada böyük bir izdihamla qarşılanıb. Torpaq daha bir qəhrəman oğlunu bağrına basıb. Beləcə adı əbədi tarixin şanlı səhifələrinə həkk olunan Murad milyonların and yerinə dönüb. Dövlət tərəfində isə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", Füzulinin, Cəbrayılın və Şuşanın azadlığı uğrunda medallarına layiq olub.



Şəhidimiz ailəli idi. Ümid və Yusif adlı övladları Vətənə əmanət qalıblar.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Sumqayıt Şəhərinin demoqrafik göstəriciləri haqqında rəqəmlər

***İlin əvvəlindən Sumqayıt şəhər əhalisinin sayı (məcburi köçkünlər istisna olmaqla) 0,4 min nəfər artaraq 01.07.2024-cü il vəziyyətinə 427,4 min nəfərə çatmışdır. Əhalinin 49,9 faizini (213,2 min nəfər) kişilər, 50,1 faizini (214,2 min nəfər) qadınlar təşkil edir. Ərazisi 94,7 kv.km olan şəhər əhalisinin bir kvadrat kilometrə düşən sıxlığı 4513 nəfər olmuşdur.***

Sumqayıt şəhərində əmək qabiliyyətli yaşadək (0-14 yaşda olan uşaq və yeniyetmələr) 100,1 min nəfər (23,4 faiz), əmək qabiliyyətli yaşda (kişilər 15-64 yaş, qadınlar 15-61 yaş) 289,1 min nəfər (67,7 faiz) və əmək qabiliyyətli yaşdan yuxarı (ahıllar) 38,2 min nəfər (8,9 faiz) əhali vardır



Ədliyyə Nazirliyinin şəhər qeydiyyat şöbələri tərəfindən 2024-cü ilin yanvar-iyun aylarında şəhərdə 1356 nəfər doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 5,6 təşkil etmişdir.

2024-cü ilin yanvar-iyun aylarında 1000 ölüm halı qeydə alınmış və 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 26 nəfər azalmışdır.

2024-cü ilin yanvar-iyun aylarında şəhərdə 665 nikaha daxil olma və 440 boşanma halları qeydə alınmış, 2023-cü ilin yanvar-iyun aylarına nisbətən nikahların sayı 25 sayda, boşanmaların sayı isə 102 sayda azalmışdır.

2024-cü ilin yanvar-iyun aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün şəhərə 55 nəfər gələn, şəhərdən 30 nəfər gedən qeydə alınmış, şəhər üzrə miqrasiya saldosu müsbət 25 nəfər təşkil etmişdir.

***Sumqayıt şəhər Statistika İdarəsi***



# Bu il Ağdaşda 3495 baş heyvan süni yolla mayalandırılıb

***Heyvandarlığın inkişaf etdirilməsi və onun məhsuldarlığının artırılmasına təsir edən faktorlardan biri də heyvanların cinsinin yaxşılaşdırılmasıdır.***

Ağdaş rayonunda kənd təsərrüfatı heyvanlarının cinsinin yaxşılaşdırılması məqsədi ilə iribuynuzlu mal-qaranın süni mayalandırılması uğurla həyata keçirilir. 2024-cü ilin yanvar- iyun aylarında 3495 baş iribuynuzlu mal-qara elit törədicilərin toxumları ilə süni mayalandırılmışdır. Heyvanların süni yolla mayalandırılmasından 2154 baş cins buzov doğulmuşdur. Rayonda mal-qaranın cinsinin yaxşılaşdırılması heyvandarlıq məhsullarının istehsalının artırılmasına müsbət təsir göstərir.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Goranboy rayonu üzrə taxıl biçini

***Goranboy rayonunda dənli və dənli paxlalı bitkilərin kütləvi biçini artıq başa çatıb.***

2024-cü il avqust ayının 20-nə olan operativ məlumata əsasən payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulmuş 23343,0 hektar sahə biçilərək məhsul yığılmışdır.

Sahələrdən 77384,5 ton məhsul toplanmış, məhsuldarlıq 33,2 sentnerə bərabər olmuşdur.

Arpanın məhsuldarlığı 33,0 sentner, buğdanın məhsuldarlığı 33,5 sentner, digər dənli və dənli paxlalı bitkilərin məhsuldarlığı isə 27,4 sentner olmuşdur. Məhsulun 25325,0 tonunu və yaxud 32,7 faizini buğda, 51936,4 tonunu (67,1 faizini) arpa, 123,1 tonunu (0,2 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil etmişdir.

| Göstəricinin adı | Əkin sahəsi, hektar | Yığılmış məhsul, ton | Məhsuldarlıq, sen/ha |
|---|---|---|---|
| Buğda | 7559,7 | 25325,0 | 33,5 |
| Arpa | 15738,3 | 51936,4 | 33,0 |
| Digər dənli və dənli paxlalı bitkilər | 45 | 123,1 | 27,4 |

***Goranboy Rayon Statistika İdarəsi***

# Polis vətəndaşlardan 6 tüfəng götürdü

***Polis əməkdaşları qanunsuz saxlanılan odlu silahların könüllü təhvil verilməsi ilə bağlı profilaktik tədbirləri davam etdirir.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, avqustun 21-də polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 6 ədəd tüfəng təhvil götürüblər.



29_27 IYUI-QARA.qxd 8/22/2024 11:08 PM Page 15



# Belarus səfiri Qazaxıstan XİN-ə çağırıldı

***Belarus səfiri Pavel Utyupin Qazaxıstan Xarici İşlər Nazirliyinə dəvət olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan mətbuatı məlumat yayıb.

Qazaxıstan baş nazirinin müavini-xarici işlər naziri Murat Nurtleu və Utupinin görüşündə Qazaxıstan-Belarus əməkdaşlığının aktual məsələləri müzakirə olunub.

"Nazir Qazaxıstanın balanslaşdırılmış və sülhsevər xarici siyasət həyata keçirdiyini vurğulayıb. Ölkəmiz əmindir ki, dövlətlər arasında olan bütün fikir ayrılıqları siyasi-diplomatik vasitələrlə həll edilməlidir", - deyə bildirilib.

Qeyd olunub ki, hazırkı geosiyasi şəraitdə dövlət başçısının siyasəti öz səmərəliliyini sübut edib. Nazir Belarus tərəfini Astananın mövqeyini obyektiv qiymətləndirməyə çağırıb.

Bundan əvvəl Belarus prezidenti Aleksandr Lukaşenko müsahibəsində deyib ki, "bəzi postsovet ölkələri əvəzində heç nə vermədən Rusiyadan fayda almağa çalışırlar".

***Ağarza Elçinoğlu***

# Sandu növbəti prezident seçkilərində iştirak edəcək



***Moldovanın hazırkı prezidenti Maya Sandu prezidentlik yarışına qatılacağını rəsmən elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə "NewsMaker" nəşri məlumat yayıb.

"Sizin dəstəyiniz mənim üçün böyük şərəfdir. 2024-cü ildə müstəqillik əldə etdikdən sonra ölkə üçün ən vacib qərarı verəcəyik. Xarici kursumuzu referendumda müəyyən edəcəyik. Əminəm ki, xalqımız sülhü, azadlığı seçəcək. 2024-cü ildə biz də prezident seçəcəyik. Mənim proqramım aydındır: həyat və qarşılıqlı anlaşma üçün ən yaxşı şərtlər. Moldova bizik və ölkə bizim onu yönəltdiyimiz yerə köçəcək", - Sandu bildirib.

O, "Hərəkət və Həmrəylik" (PAS) partiyasından namizəd olacaq.

Qeyd edək ki, avqustun 1-də Moldovada prezident seçkiləri və Avrointeqrasiya referendumu öncəsi seçkiqabağı dövr başlayıb. Seçki kampaniyasının özü 2024-cü il sentyabrın 20-də başlayacaq.

***Gülayə Mecid***

# İranın Baş Qərargahı Rəisinin ölümü ilə bağlı bu məlumatı təkzib etdi

***İran Silahlı Qüvvələrinin Baş Qərargahı "Fars" agentliyinin İslam Respublikası prezidenti İbrahim Rəisinin helikopterinin qəzaya uğraması ilə bağlı məlumatını təkzib edib.***

"Unikal" xəbər verir ki, bu barədə İran mətbuatı məlumat yayıb.

"Fars agentliyinin helikopterin qəzaya uğramasının amillərindən birinin təhlükəsizlik protokollarına zidd olaraq daha iki sərnişinin olması, buna görə helikopterin lazımi hündürlüyü əldə etmək üçün kifayət qədər gücə malik olmaması barədə məlumatı yalandır", - bəyanatda bildirilir.

Qeyd edək ki, "Fars" agentliyi təyyarənin qəzaya uğramasının səbəbinin hava şəraiti və sərnişinlərin sayının həddi aşdığını, vertolyotun lazımi hündürlüyə çata bilmədiyini və dumanlı şəraitdə dağa çırpıldığını yazıb.

Xatırladaq ki, mayın 19-da prezident Rəisi, xarici işlər naziri Abdullahiyan və yerli hakimiyyət nümayəndələrini daşıyan helikopter İranın Şərqi Azərbaycan əyalətində qəzaya uğrayıb. Nəticədə helikopterin heyəti və bütün sərnişinlər həlak olub.

***Ağarza Elçinoğlu***

# Klinton Trampı "yaxşı aktyor" adlandırdı

***ABŞ-nin keçmiş prezidenti Bill Klinton Donald Trampı ələ salaraq onu "haqqı verilməli olan yaxşı aktyor" adlandırıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, o, bunu Çikaqoda ABŞ Demokratlar Partiyasının milli qurultayının iştirakçıları qarşısında çıxışı zamanı deyib.

Bu qiymətləndirməyə səbəb Trampın onun administrasiyası dövründə ölkənin Rusiya və Şimali Koreyanın hörmətindən istifadə etməsi ilə bağlı sözləri olub. 1993-2001-ci illərdə Klinton ABŞ prezidenti olub, seçkilərdə Demokratlar Partiyasını təmsil edib. Qeyd edək ki, ABŞ-da prezident seçkiləri 2024-cü il noyabrın 5-də keçiriləcək.

***Gülayə Mecid***

# "Putin Bakıya səfəri zamanı İrəvanla sülhü müzakirə edib" - Zaxarova

***Rusiya prezidentinin Bakıya səfəri zamanı Bakı ilə İrəvan arasında barışıq mövzusu müzakirə edilib.***



"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

Zaxarova qeyd edib ki, Rusiya Federasiyasının bu istiqamətdə bütün səyləri həm Bakı, həm də İrəvanla ümumi tarixi və mədəni dəyərlərə əsaslanan xüsusi müttəfiqlik münasibətlərinin ruhuna uyğundur: "Sülh müqaviləsinin imzalanması regionda sülhün və sabitliyin bərqərar olması üçün mühüm şərtdir. Ölkəmiz bütün səviyyələrdə bunun tez bir zamanda baş verməsində maraqlı olduğunu bəyan edib. Bunu Rusiya prezidentinin özü də təsdiqləyib, o da məsələnin həlli üzrə dialoqu davam etdirmək üçün Bakıya səfərindən sonra Ermənistanın baş naziri Nikol Paşinyanla əlaqə saxlamaq niyyətində olduğunu bildirib. Biz üçtərəfli saziş çərçivəsində tərəflərə kömək etməyə hazırıq".

Zaxarova Ermənistan-Azərbaycan sərhədində mümkün gərginliyin artması ilə bağlı son məlumatlardan da söz açıb və qeyd edib ki, onlar mütəmadi olaraq hər iki tərəfi təmkinli olmağa və bütün mübahisəli məsələləri yalnız sülh və diplomatik yollarla həll etməyə çağırırlar.

***Ağarza Elçinoğlu***

# Netanyahunun oğlunun yaşadığı binaya bomba qoyulub?

***Mayamidə elit yaşayış kompleksində partlayıcı qurğuya bənzər əşya aşkarlanıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, kompleks sakinləri şübhəli bir əşya ilə bağlı polisə xəbərdarlıq edib. Bundan sonra ərazi mühasirəyə alınıb. Məlum olub ki, mühasirəyə alınan yer İsrailin baş naziri Benyamin Netanyahunun oğlu Yair Netanyahunun evidir.

Sakinlər bina administrasiyası və polis şöbəsindən şifrəli mesaj alıb və orada onlardan mənzillərində qalmaları və pəncərələrə yaxınlaşmamaları xahiş olunub. Təxminən üç saat sonra sakinlər karantinin ləğv edildiyi və mənzillərini tərk edə bildikləri barədə başqa bir mesaj aldıqlarını açıqlayıblar.

Kompleks sakinlərindən birinin İsrail telekanalına verdiyi məlumata görə, insident zamanı Netanyahunun 33 yaşlı oğlu Yair binada olmayıb.



Qurğunun kim və ya kimlər tərəfindən komplekse qoyulduğu hələlik məlum deyil. Faktla araşdırma aparılır.

***Gülayə Mecid***

# "Heyvandarlıqla yox, öz işinizlə məşğul olun" - Paşinyan naziri ələ saldı

***Ermənistan hökuməti bu gün baş nazir Nikol Paşinyanın rəhbərliyi ilə toplanıb.***



"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. İclasda Ermənistan Respublikasında heyvandarlığın inkişaf etdirilməsi proqramlarının təsdiq edilməsi məsələsinin müzakirəsi zamanı xarici işlər naziri Ararat Mirzoyan təkliflə çıxış edib.

"Cənab Baş nazir, bu müzakirə belə bir fikrin yaranmasına səbəb oldu ki, bu da bir həll yolu ola bilər, bəlkə də səhv edirəm. Amma məncə, həm səmərəlilik baxımından, həm də nəzarət baxımından bir həll olacaq. Bəs dövlət lazımi heyvan növlərini alıb, sonra kəndlilərə yarı qiymətinə versə, necə olar?", - Mirzoyan bildirib.

"Mirzoyan müəllim, dövlət alıb, bəs o qədər heyvanı harada saxlayacaq? Nə vaxta qədər davam edəcək? Onların yarısı öləcək". Yəni, dövlət bir həftəlik də olsa, heyvandarlıqla məşğul olmalıdır. Bunu kim edəcək? XİN bizi əmin edir ki, heyvandarlıqla məşğul olacaq? Yox, siz öz işinizdə daha yaxşısınız. Buna görə də yaxşı olar ki, öz işinizlə məşğul olun", - deyə Nikol Paşinyan nazirə gülərək cavab verib.

***Ağarza Elçinoğlu***

# "Hindistan Avropada sülhün tərəfdarıdır" - Modi

***Hindistanın baş naziri Narendra Modi Polşaya səfəri zamanı Hindistan diasporu ilə görüşdə ölkəsinin Avropada sülhün tərəfdarı olduğunu bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə "Hindustan Times" qəzeti məlumat dərc edib.

Siyasətçi bəşəriyyəti təhdid edən çağırışlar, xüsusən də Ukrayna münaqişəsi qarşısında birləşməyə çağırıb. Modi ikitərəfli əməkdaşlığın gücləndirilməsi ilə bağlı Ukrayna hakimiyyəti ilə danışıqların davam etdirilməsini səbirsizliklə gözlədiyini bildirib.

O, həmçinin qeyd edib ki, Hindistan hamı ilə əlaqə saxlamağa sadiqdir.

"Hindistan Buddanın ənənəsinə inanır, ona görə də müharibəyə deyil, sülhə rəğbət bəsləyir. Hindistan bu regionda sülhün tərəfdarıdır və aydındır ki, indi müharibə vaxtı deyil", - Modi bildirib.

O, ölkəsinin diqqətini diplomatiya və dialoqa yönəltdiyinə əmin edib.

Qeyd edək ki, Modi Polşada səfərdədir və orada baş nazir Donald Tusk ilə görüşü planlaşdırılıb. Məlumata görə, avqustun 23-də o, Ukraynaya gedəcək

***Gülayə Mecid***

29_27 IYUl-QARA.qxd 8/22/2024 11:09 PM Page 16



# "Cavab oyununa azərbaycanlı hakim təyin etsinlər" - "Qalatasaray"ın baş məşqçisi

***"Qalatasaray"ın baş məşqçisi Okan Buruk Çempionlar Liqasının pley-off mərhələsində "Yanq Boyz"a uduzduqları matç (2:3) haqqında danışıb.***

"Unikal" xəbər verir ki, mütəxəssis görüşdən sonra təşkil olunan mətbuat konfransında oyunu belə dəyərləndirib: "Çox erkən qol buraxdıq. Bu yol verdiyimiz səhvin nəticəsi idi. Ona görə də oyuna motivasiyasız başladıq. İlk hissənin sonunda ikinci qolu qapımızda gördük. İkinci hissənin əvvəlində Hakim Ziyeşi meydana buraxdıq. Qol şanslarımız var idi. Sonra Mişi Batşuayi qollar vurdu. Biz bu oyunda gördük ki, öz səviyyəmizi düzgün şəkildə ortaya qoysaq, rahatlıqla qol şansları yarada bilərik. Səhvlərə və boşluqlara yol verdik. Cavab oyununda daha yaxşı çıxış etməliyik".

O.Buruk oyunun baş hakimi Daniel Siebertdən narazı qalıb.



O, görüşün İsveçrənin Almaniya kantonunda keçirildiyini xatırladaraq, bu matça almaniyalı hakimin təyin edilməsinin səhv olduğunu vurğulayıb: "Mən tribunada idim. Oradan seyr edərkən hakimin idarəçiliyi məni narahat etdi. Lazımsız vərəqələr göstərdi. Bir vərəqəni yazmağı iki dəqiqə vaxt apardı. İsveçrənin Almaniya kantonundayıq və matçı almaniyalı hakim idarə etdi. İnşallah, cavab oyununa da azərbaycanlı bir hakim təyin edərlər və vəziyyət bərabərləşər".

Qeyd edək ki, bu komandalar arasında cavab matçı avqustun 27-də İstanbulda keçiriləcək.

# Olimpiya çempionları "Azercell"in qonağı oldular



***Avqust ayının 21-də "Azercell"in prezidenti Zərinə Zeynalova Paris Olimpiya Oyunlarında Azərbaycana qızıl medallar qazandıran cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş Cüdo Federasiyasının və "Azercell"in nümayəndə heyətinin iştirakı ilə baş tutub.

"Azərbaycan yığmasının hər bir çıxışını böyük həyəcanla izləyirdik. Olimpiya Oyunlarının nəticəsi cüdoçularımızın zəhmət və əzmkarlığının bariz nümunəsi oldu. Bayrağımızı Parisdə zirvələrə qaldıraraq bu sevinc hissini bizə yaşatdığınız üçün sizə təşəkkürümüzü bildiririk. Sizinlə fəxr edirik",- deyə Zərinə Zeynalova idmançıları təbrik etdi.

Z. Zeynalova "Azercell" və Cüdo Federasiyasının əməkdaşlığı haqqında da danışdı: "Üç ilə yaxındır ki, şirkətimiz Azərbaycan Cüdo Federasiyasının məğrur tərəfdaşıdır. Cüdoçularımızın ardıcıl olaraq dünya miqyasında nüfuzlu çempionatlardan qalibiyyət ilə dönməsi bizi qürurlandırır. Sosial məsuliyyətli korporativ vətəndaş kimi bu əməkdaşlığın ölkəmizdə idmanın inkişafı ilə yanaşı, cəmiyyətin rifahının daha da yaxşılaşdırılması üçün faydalı olmasına çalışırıq. Federasiya ilə birgə səylərimiz nəticəsində "Qızlara ağ yaraşır", "Söz verirəm" və "Doğru yol budur" adlı layihələri həyata keçirməklə ölkəmizdə qızlar arasında sağlam həyat tərzinin təbliği, erkən nikahların qarşısının alınması, uşaq hüquqlarının qorunması, narkomaniya ilə mübarizə kimi mühüm mövzuları gündəmə gətirməyə müvəffəq olmuşuq. Bu nəticələr tərəfdaşlığımızın məhsuldarlığını bir daha sübut edir".

Görüş çərçivəsində Olimpiadanın super çempionları "Azercell"in "SuperSən" tarif paketinə abunə oldular. Daha sonra qəhrəmanlarımızın Azercell əməkdaşları ilə görüşü baş tutub.

Ölkənin lider mobil operatoru idmançılarımızı, Azərbaycan Cüdo Federasiyasını və bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edir! Hidayət və Zelim, səsiniz daima ən uca zirvələrdən gəlsin!

# Azərbaycan UEFA reytinqində neçənci sıradadır?

***Ölkələrin UEFA reytinqində dəyişikliklər olub.***

"Unikal" xəbər verir ki, buna avrokubokların pley-off mərhələsinin ikinci gününün nəticələri səbəb olub.

Çempionlar Liqası və Konfrans Liqasında baş tutan matçlardan sonra bəzi ölkələrin xal hesabı dəyişib. Azərbaycanın mövqeyi dəyişməz qalıb.

Ölkəmizin hesabında 18,875 xal var. Azərbaycan Avropada 26-cı pillədədir.

Cari mövsümün qazancı 2,125-ə bərabərdir. Ölkə reytinqi üçün "Zirə" 1,000, "Qarabağ" 0,750, "Sabah" 0,250, "Sumqayıt" 0,125 xal əldə edib.

Qeyd edək ki, cədvələ İngiltərə başçılıq edir - 89,160 xal.



# "Qalatasaray" İsveçrə klubuna məğlub oldu

***Türkiyənin "Qalatasaray" komandası Çempionlar Liqasının pley-off mərhələsində mübarizəyə başlayıb.***



"Unikal" xəbər verir ki, İstanbul təmsilçisi səfərdə İsveçrənin "Yanq Boyz" klubu ilə üz-üzə gəlib. Görüş meydan sahiblərinin 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

"Qalatasaray"ın heyətində Abdulkərim Bardakçı 84-cü dəqiqədə qırmızı vərəqə alaraq meydandan kənarlaşdırılıb.

Komandalar arasında cavab oyunu avqustun 27-də Türkiyənin İstanbul şəhərində keçiriləcək.

# Ronaldonun Yutub kanalı dünya rekordu qırdı



***Portuqaliya millisinin və "Əl-Nəsr"in hücumçusu Kriştiano Ronaldonun şəxsi Yutub kanalı rekorda imza atıb.***

QOL.az xəbər verir ki, bu barədə ESPN məlumat yayıb.

Kanal 1 milyon abunəçini qazanmaq üçün sərf etdiyi vaxt baxımından platformanın tarixində ən sürətli kanal olub. Ronaldonun Yutub kanalı 1 milyon izləyici sayına cəmi 90 dəqiqə ərzində çatıb.

Kanal elan edildiyi andan etibarən 2 saat ərzində 2 milyondan çox abunəçi qazanıb. Kanal ümumilikdə 17 saat ərzində 14 milyondan çox abunəçi toplayıb.

# AFFA-dan "Neftçi"nin legioneri ilə bağlı qərar

***AFFA-nın Apellyasiya Arbitraj Tribunalı "Neftçi" klubunun müraciətinə baxıb.***




"Unikal" milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, paytaxt təmsilçisinin futbolçusu Ervin Koffi ilə bağlı şikayəti qismən təmin edilib.

Azərbaycan Premyer Liqasının II turunda "Səbail"lə 1:1 hesablı heç-heçə ilə nəticələnən matç bitdikdən sonra azarkeşlərə kənar əşya atan oyunçuya 2 oyunluq cəzanın çəkilməmiş hissəsi, yəni 1 oyunluq cəza şərti tətbiq edilib.

Cinah müdafiəçisinə üç aylıq sınaq müddəti verilib.

Bundan başqa, kluba tətbiq olunan 2000 manat cərimə qərarı da qüvvədə saxlanılıb.

# "Milan"ın müdafiəçisi "Yuventus"da

***"Milan"ın fransalı mərkəz müdafiəçisi Pyer Kalulu karyerasını "Yuventus"da davam etdirəcək.***

"Unikal" xəbər verir ki, 24 yaşlı futbolçunun transferini "Bianconeri"nin mətbuat xidməti də təsdiqləyib.

Turin klubu fransalı futbolçunu cari mövsümün sonuna kimi daha çox almaq imkanı ilə icarəyə götürüb.

İtaliya mətbuatının yazdığına görə, icarə "Yuventus" üçün 3,3 milyon avroya başa gələcək və "qoca sinyora" mərkəz müdafiəçisini 14 milyona ala bilər.